www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 mart 2016-cı il Çərşənbə axşamı № 65 (6386) Qiyməti 60 qəpik

**Xəbər**

## İlhamənin oğulluğu hüquq-mühafizə orqanlarına müraciət etdi

yazısı səh.3-də

**Gündəm**

### Cəbhədə gərginlik daha da artır - ermənilər Şuşaya qaçır



Düşmənlə döyüşdə silahlı qüvvələrimizin iki hərbçisi şəhid olub; Ermənistan Müdafiə Nazirliyi isə itkiləri gizlədir

yazısı səh.6-da

### Prezident Maqsud İbrahimbəyovun məzarını ziyarət edib

yazısı səh.2-də

### Eldar Mahmudovun atasının barelyefi söküldü

yazısı səh.4-də

### Radikal dindar Əlixan Musayevin çağırışına rəsmi reaksiya verildi

yazısı səh.7-də

### İqtidar yenidən qərbyönümlü siyasətə qayıdır

yazısı səh.8-də

### Karaciç cəzasını aldı, bəs Sərkisyan...

yazısı səh.9-da

### Avropaya 60 canlı bomba "hədiyyəsi" - Qərb nəşrindən şok iddia

yazısı səh.10-da

### Postneft dövrünə keçid - iki fərqli rəy...

yazısı səh.11-də

### "Ebru ilə Rza Zərrab dastanı"nın bilinməyən detalları, pərdəarxası...

yazısı səh.15-də

### Yediyimiz düyüdəki "düyünlər"

yazısı səh.14-də

### Beş maddə ilə həbsdə olan MTN generalının şikayəti rədd edildi

yazısı səh.2-də

## Ali Məhkəmə baş prokurorun vəsatətini təmin etdi

# AVROPANIN TANIDIĞI VƏKİL AZADLIQDA - SIRADA O AD DA VAR...

Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev barəsində 5 il şərti cəza müəyyən edilməklə, həbsdən buraxıldı; yaxın zamanlarda jurnalist Xədicə İsmayılovanın işi üzrə də kasasiya şikayətinə baxılacaq; proqnozlar nikbindir...




yazısı səh.5-də

## Rüstəm İbrahimbəyov hələ də Bakıdadır - müəmma, yoxsa...

Kinorejissor Azərbaycana gəlməsinə imkan yaradanlar, özünə qarşı hansısa maneənin qalıb-qalmadığı haqda "Yeni Müsavat"ın suallarına cavab verdi...

yazısı səh.4-də



### Azərbaycanda da biznesi olan Qutseriyev kimdir?

yazısı səh.13-də



### Xaləddin İsgəndərov icra hakimiyyətinin həyətində "moyka" açıb

yazısı səh.3-də



### Tofiq Yaqublunun AXCP ilə barışıq təşəbbüsünə Müsavatdan cavab

yazısı səh.7-də




## Şəhidimiz Lənkəranda dəfn olundu

**Cəbhənin Qazax bölgəsində düşmən təxribatı nəticəsində şəhid olan Azərbaycan Ordusunun zabiti, 1992-ci il təvəllüdlü Qalib Laim oğlu Zülfüqarlı martın 28-də dəfn edilib. Şəhid olan leytenant dünən doğulduğu Lənkəran rayonunun Vilvan kəndində torpağa tapşırılıb.**

Dəfn mərasimində kənd sakinləri, rayonun icra strukturlarının nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lənkəran rayon şöbəsinin əməkdaşları, şəhidin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri iştirak ediblər.

Yaylım atəşindən sonra şəhid torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

## Hövsanda göyərti satanı döyüb burnunu sındırdılar

**Hövsanda göyərti satan 24 yaşlı Saleh Valeh oğlu Əmirov vəhşicəsinə döyülüb. S.Əmirovu döyənlər onun burnunu sındırıblar. Hadisə martın 28-də Hövsan bazarının yaxınlığında baş verib. S.Əmirovun nənəsi Rəna Əmirova musavat.com-a deyib ki, S.Əmirov Sabunçu rayon 3 saylı şəhər klinik xəstəxanasına aparılıb.**

Onun sözlərinə görə, Salehi Türkanda daş karxanaları olan Ramin Xankişiyevin yaxın adamı olan Ağasəfin oğlu döyüb. Başı ilə sifətindən vurub, burnunu sındırıb, sonra da təpikləyiblər. Raminin qardaşı Famil də olay zamanı orada olub. R.Əmirovanın sözlərinə görə, S.Əmirovu döyüblər ki, Hövsan bazarında göyərti satmaqdan imtina etsin: "Ramin Xankişiyevin Türkanda daş karxanaları var. Hövsanda da göyərti piştaxtası var. Salehin atası da ağır şəkət xəstəsidir. O da kənddən göyərti aparıb orada satır ki, birtəhər ailə dolansın, atasına lazım olan dava-dərmanı ala bilsinlər. Bu adamlar isə deyirlər ki, burada göyərtini biz sata bilərik, filankəslərə haqq veririk. Yanlarında da Türkanda hamının "Jiqan" adı ilə tanıdığı Ağasəfin oğlunu saxlayırlar. Raminin qardaşı Famil kimi istəsə "Jiqan"ın oğluna döydürür. Salehi qanına bələyiblər, şikayət edirik, baxan yoxdur".

**R.Əmirova hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət edərək S.Əmirovu döyənlərin tezliklə cəzalandırılmasını xahiş edib:** "Qoy bu adamlar bilsinlər ki, kasıbın əlindən axırıncı çörək yerini alıb özünü qana bələməyin cəzası var. Özlərini elə aparırlar ki, elə bil dövlət yoxdur. Mən polislərdən, prokurorlardan xahiş edirəm ki, məsələni araşdırsınlar".

❑ E.MƏMMƏDƏLİYEV

## Poroşenko Rusiyaya: "Rədd olun"

**Ukrayna prezidenti Pyotr Poroşenko Donbas bölgəsinə səfər edib. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bölgədə sülhün bərpa olunmasının vacibliyindən danışan Poroşenko rus qoşunlarını bölgədən "rədd olmağa" çağırıb.**

"Sülhün bərpa olunması çox önəmlidir. Qoy Donbasda tank səsi eşidilməsin, toplardan atəş açılmasın, ukraynalılar ölməsin.

Qoy nəhayət ki, Minsk razılaşmaları qüvvəyə minsin, rus qoşunları burdan rədd olsun. Burdan ukraynalılar adından müraciət edirəm: rədd olun".

Xatırladaq ki, rəsmi Moskva qoşunlarının Ukraynada olmasını inkar edir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Prezident Maqsud İbrahimbəyovun məzarını ziyarət edib

**Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edib.**

APA-nın məlumatına görə, dövlət başçısı və xanımı Fəxri Xiyabanda Azərbaycan prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edərək xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovaya bir daha başsağlığı veriblər. Anna İbrahimbəyova həyat yoldaşının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına və xanımına minnətdarlıq edib.





## Vasif Talıbovdan yeni təyinat

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi sədrinin müavini təyin edilib.**

APA bildirir ki, bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov sərəncam imzalayıb.

Sərəncama əsasən, Yəhya Allahverdiyev Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi sədrinin müavini təyin edilib.

## Borclu abonentlər qaz idarəsinin işçilərini döydü

**Cəlilabad rayonunda Qaz İstismar Sahəsinin işçiləri borclu abonentlərin hücumuna məruz qalıblar.**

APA-nın məlumatına görə, hadisə rayonun Alar kəndində qeydə alınıb. Kənddə borclu abonentləri qaz xətləri kəsilən zaman bir neçə yerli sakin sahənin qaynaqçısını döyüb. Bu vaxt kənd sakinləri ayırmağa çalışan digər işçilərə də hücum olub. Nəticədə Qaz İstismar Sahəsinin 3 əməkdaşı müxtəlif bədən xəsarətləri ilə Cəlilabad Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Hadisə ilə bağlı Cəlilabad Rayon Polis Şöbəsinə də məlumat verilib.

Hazırda faktla bağlı araşdırma aparılır.

## Beş maddə ilə həbsdə olan MTN generalının şikayəti rədd edildi

### Sübahir Qurbanov həbsdə qaldı



**5 ay əvvəl Milli Təhlükəsizlik Nazirliyində(MTN) baş tutan qəfil əməliyyat nəticəsində qurumda mənzillərək illərlə qanunsuz hərəkətlər törətmiş böyük bir cinayətkar çete ifşa olundu. Martın 28-də Bakı Apelyasiya Məhkəməsində həmin əməliyyat zamanı işdən çıxarılan, sonradan isə həbs olunan MTN-in Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanovun apelyasiya şikayətinə baxılıb.**

Martın 28-də baş tutan qapalı məhkəmə iclasında general-mayorun barəsindəki həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi haqda şikayəti təmin olunmayıb. S.Qurbanov sabiq nazir Eldar Mahmudovun yaxın əhatəsinə daxil olan idarə rəisi olub. Onun adı bir sıra qanunsuz həbslərdə hallanıb. Qeyd edək ki, S.Qurbanov barəsində ötən il noyabrın 25-də Səbayel Rayon Məhkəməsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Dekabrın 3-də isə onun vəkili Valeri Vəliyev tərəfindən apelyasiya şikayəti verilib. Məhkəmə Səbayel Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb, S.Qurbanovun apelyasiya şikayəti təmin edilməyib. martın 7-də müddət 3 ay uzadılıb. Generalın həmin qərardan verdiyi şikayətə martın 28-də baxılaraq təmin olunmayıb. S.Qurbanov Cinayət Məcəlləsinin 145.3-cü - 2 və daha çox şəxsi qanunsuz azadlıqdan məhrum etmə, 182.3.1-ci - mütəşəkkil dəstə tərəfindən hədə-qorxu ilə tələb etmə, 302.2-ci - əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma, 308.2-ci -vəzifə səlahiyyətlərindən sui-istifadə, 308.1-ci - seçkinin (referendumun) nəticələrinə təsir etmə), 309.2-ci - vəzifə səlahiyyətlərini aşma, 309.1-ci vəzifəli şəxsin xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxamaqla cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurma, 311.3.1 - rüşvət alma maddələri ilə ittiham olunur.

Baş Prokurorluğun yaydığı məlumatda keçmiş MTN-in 21 sabiq əməkdaşının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyi bildirilib. 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilib. MTN əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

❑ ELŞƏN

## İran öz neftini Azərbaycan qazına dəyişmək istəyir

**"İran Azərbaycana neft satıb, əvəzində təbii qaz ala bilər". Bu barədə İranın Neft Nazirliyinin Xəzər neft və qaz işləri üzrə sabiq icraçı direktoru Mahmud Kaqani bildirib. (APA)**

Onun sözlərinə görə, İran enerjidaşıyıcılarının mübadiləsində maraqlıdır: "Mübadilənin qonşu ölkələrlə olması çox vacibdir. İran Azərbaycana neft satıb, əvəzində təbii qaz ala bilər. İranın Enerji Nazirliyi Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstanla enerji mübadiləsi həyata keçirmək mövzusunda ciddi görüşlər keçirir. İran enerji təhlükəsizliyi üçün enerji mübadiləsinə hazırdır. Enerji iqtisadi inkişafın və dayanıqlılığın lokomotividir", - deyə M. Kaqani qeyd edib.

## Müxalifət Rza Zərrabın məhkəməsini izləmək üçün ABŞ-a heyət göndərir

**Türkiyə müxalifəti iranlı iş adamı Rza Zərrabın məhkəməsini izləmək üçün ABŞ-a heyət göndərir.**

Virtualaz.org xəbər verir ki, bu haqda CHP qrup başqan vəkili Özgür Özel deyib. Özgür Özel deyib ki, gələn həftə o və CHP-dən daha iki millət vəkili partiya lideri Kamal Kılıçdaroğlunun təlimatı ilə Mayamiyə gedəcək.

Rza Zərrab martın 19-da Mayami areroportunda FTB əməkdaşları tərəfindən həbs olunub. Nyu York Cənub dairəsi federal prokuroru Prit Bhararanın ona qarşı irəli sürdüyü ittiham aktına görə Rza Zərrab ABŞ-ın İrana qarşı tətbiq etdiyi maliyyə sanksiyalarını neytrallaşdırmaq üçün beynəlxalq miqyaslı fırıldaq sxemi qurub, Amerikanın bank sisteminə qarşı saxtakarlıq edib və İrana aid pulları qeyri-leqal yollarla transferini həyata keçirərək Birləşmiş Ştatların milli təhlükəsizliyini təhdid edib. Bu ittihamlar üzrə onu 75 il həbs cəzası gözləyir.

## Vaşinqtonda nüvə sammiti: Obama cəmi bir nəfərlə görüşəcək

**ABŞ prezidenti Barak Obama Vaşinqtonda keçiriləcək nüvə sammiti zamanı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla şəxsi görüşdən imtina edib.**

Virtualaz.org xəbər verir ki, bu barədə "The Wall Street Journal" ABŞ administrasiyasındakı mənbəyə istinadən yazıb. "Ərdoğanla onun Vaşinqtona səfəri zamanı görüşməmək qərarı laqeydlikdən irəli gəlmir. Prezidentlər bundan əvvəl Türkiyədə keçirilən G20 sammiti zamanı görüşüblər və fevralda telefonla danışıblar"-mənbə bildirib.

Qəzet qeyd edir ki, Obamanın ikitərəfli görüşlərə dair əvvəlcədən müəyyən edilmiş dəqiq cədvəli yoxdur. Bildirilir ki, Türkiyə prezidenti Ərdoğan Obamanı Merliend ştatında türk icması tərəfindən inşa edilmiş məscidin açılışına dəvət edib. Ancaq Obamanın əvəzindən həmin tədbirdə vitse-prezident Cozef Bayden iştirak edəcək. Məlumata görə, Vaşinqtondakı nüvə sammitində Obamanın ancaq bir görüşü planlaşdırılıb-Çin lideri Si Tszinpinlə.

Vaşinqtondakı Yaxın Şərq İnstitutundan analitik Soner Çağatay isə hesab edir ki, Obama Ərdoğanın siyasətindən narazıdır. Bura kürd məsələsi və insan haqları daxildir.

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# İlhamənin oğulluğu hüquq-mühafizə orqanlarına müraciət etdi

## Vəkil: "Əgər Orxana qarşı gələcəkdə hansısa addımlar atılarsa..."

**Martın 27-də mərhum xalq artisti İlhamə Quliyevanın oğulluğu Orxan Nadirovun ölümü ilə bağlı mətbuatda və sosial şəbəkələrdə yalan məlumat yayılıb. Amma bu xəbərin doğru olduğunu zənn edənlər də az olmadı. Çünki günlərlə mətbuatın gündəmindən düşməyən məlum miras qalmaqalı ilə bağlı Orxan Nadirovun həyatına təhlükə ola biləcəyi istisna olunmur.**


Orxan Nadirov

Ölümü ilə bağlı yayılan xəbərlərdən sonra Orxan Nadirov təhlükəsizliyinin tam təmin olunması üçün hüquq-mühafizə orqanlarına müraciət edib. Bu barədə mərhum xalq artistinin vəkili Habil Vəliyev "Yeni Müsavat"a açıqlamasında bildirib: "Orxanın vəziyyəti hazırda yaxşıdır, sağ-salamatdır. Amma onun ölümü ilə bağlı yalan məlumatlar yayılırsa, deməli, hansısa təhlükə də ola bilər. Buna görə də yaxşı olardı ki, məlumatı yayanlar və onlarla əlaqədə olan şəxslərə qarşı tədbirlər görülsün. Əgər Orxana qarşı gələcəkdə hansısa addımlar atılarsa, onlar birbaşa məsuliyyət daşıyırlar. Hər bir insanın taleyi Allahın əlindədir. Orxanın həyatı təhlükədə ola bilər. Buna görə də o, təhlükəsizliyinin tam təmin olunması üçün hüquq-mühafizə orqanlarına müraciət edib".

**"Mərhum sənətkarın evində hazırda kim yaşayır" sualımızı vəkil bu cür cavablandırdı:** "Orxan bəy əvvəldə də buyurmuşdu ki, onun mənzillə bağlı heç bir iddiası yoxdur. Mənzilin qapısı açılır, cümə axşamları orda keçirilir. Daha sonra Orxan bəy açarları təhvil verir. Onun heç bir mal- mülkdə gözü yoxdur. Amma hər bir halda bu məsələlər hüquq- mühafizə orqanları tərəfindən çözülməlidir".

**Qeyd edək ki, bir neçə gün bundan əvvəl mərhum sənətkarın adına fond təsis ediləcəyi ilə bağlı İlhamə Quliyevanın dayısı oğlu Eldar İsmayılov açıqlama yaymışdı. Onun sözlərinə görə, yaradılacaq fond aztəminatlı ailələrdən olan istedadlı uşaqların təhsilinə dəstək verəcək. Vəkil Habil Vəliyev bu məsələyə də aydınlıq gətirib:** "Orxan bəyin bu haqda heç bir fikri yoxdur. O həmçinin bildirir ki, onun Azərbaycanda tanıdığı bir fond var, anasının adına hansısa fondun yaranmasını istəmir".

Xatırladaq ki, xalq artisti İlhamə Quliyeva fevralın 25-də səhər saatlarında ürək tutmasından dünyasını dəyişib. Onun ölümündən sonra mirasının kimə qalacağı ilə bağlı qalmaqal yaşanmaqdadır. Mərhum sənətkarın qohumu Əli Mirəliyev dəfələrlə etiraz dolu açıqlamalar verərək vurğulayıb ki, Orxan müğənninin qanuni oğulluğu olmadığından ona heç bir miras düşmür.

Qeyd edək ki, Orxan Nadirov mərhum sənətkarın xalası nəvəsidir.

❑ Xalidə GƏRAY





# Xaləddin İsgəndərov icra hakimiyyətinin həyətində "moyka" açıb

## "Təmiz Binəqədi", yoxsa...

**Binəqədi rayonunda salınan "Azadlıq" parkı acınacaqlı durumdadır. Burada yaşayanların ən çox dincəldiyi park baxımsızlıqdan bərbad vəziyyətə düşüb. Pakın döşəməsi dağılıb, ağaclar isə məhv edilir. Ətrafda aparılan onlarla tikili parkı tanınmaz hala salıb. "Azadlıq" metrostansiyası parkın içindən keçdiyindən buradan keçənlər əlindəki əşyalar parka atır. "Azadlıq" parkı Binəqədi Rayon İcra Hakimiyyətinin yaxınlığında yerləşsə də, bu biabırçı vəziyyəti görməzdən gəlirlər. Yol kənarlarında "Təmiz Binəqədi" sözləri yazılsa da, mənzərə yuxarıda təsvir etdiyimiz kimidir. biabırçı lakin görünür icra nümayəndələri bu şüarı layiqincə yerinə yetirə bilmirlər.**

"Azadlıq" parkından Binəqədi Rayon İcra Hakimiyyətinə 1-2 dəqiqəlik yoldur. Kənardan icra hakimiyyətinin "Ağ Evi" xatırladan dəbdəbəli binası görünür. Geniş həyət, yaşıllıqlar içərisində ucalan bina...

Binanın həyətində 2-3 bağban işləyir. Xaricdən xüsusi gətirilmiş ağaclar yetişdirilir. İcra başçısı binanın həyətini qiymətli bitki hesab edilən Yaponiyanın "Zelkova Serrata"sı ilə bəzəyib. Bir sözlə, cənnət-məkan... İcra nümayəndələri səliqəli və "Təmiz Binəqədi"ni, sən demə, öz idarələrinin həyətində yaradıblar. Həyətin dörd yanına da "təmizliyə riayət edin" sözləri yazılıb.

Ərazidə olduğumuz zaman diqqətimizi çəkən maraqlı bir məqam da oldu. İndiyədək dövlət qurumlarının qarşısında xüsusi "moyka" və ya kafeyə rast gəlməsək də, bu halı yalnız Binəqədi Rayon İcra Hakimiyyətinin həyətində gördük. Dəbdəbəli və bahalı mərmər daşlardan tikilmiş "moyka" yalnız icra başçısının avtomobilini yumaq üçün tikilib. Belə ki, icra başçısı Xaləddin İsgəndərov icra hakimiyyətinin binasının qarşısında şəxsi avtomobillərinin yuyulması üçün "moyka" açıb. Fürsətdən istifadə edib, avtomobil yuyan sürücü ilə də həmsöhbət olduq. Bildirdi ki, bura yalnız icra başçısı Xaləddin İsgəndərova məxsusdur. Burada ancaq icra başçısının avtomobili yuyulur.

Dövlət idarəsinin qarşısında şəxsi məqsədlər üçün hər hansı bir obyekt tikməyin qadağan olduğunu yəqin ki, Xaləddin İsgəndərov da bilir.

❑ Məğrur MƏRD
Fotolar müəllifindir





# "Independent" çapını dayandırdı... qəzetlər "öldü"?

## Rauf Arifoğlu: "Qəzetlərin dəfni ilə bağlı danışmaq hələ tezdir..."

**Rusiyalı iş adamı Aleksandr Lebedevə məxsus Britaniyanın "The Independent" qəzetinin kağız versiyası öz fəaliyyətini dayandırıb. Bundan sonra "The Independent"in yalnız onlayn versiyası mövcud olacaq. Qəzet 1995-ci ildən bu günə qədər ilk dəfədir ki, kağız versiyasını bağlayıb və tam internet rejiminə keçib. Bunun əsas səbəbi isə maliyyə çətinlikləri ilə bağlıdır. Qəzet 1990-cı illərin əvvəlində də ciddi maliyyə problemləri ilə üzləşib. "The Independent"in tirajı 2009-cu ildə 184 min nüsxəyə qədər enib. A.Lebedev 2010-cu ildə nəşri nominal qiymətə - 1 funt sterlinqə alıb. Lakin qəzet yenə də populyarlığını itirməkdə davam edib. Ötən il isə onun gündəlik tirajı 58 min nüsxədən aşağı düşüb. Bankirin "The Independent"in kağız versiyasının dərcini dayandırmaq niyyəti bu ilin fevralında məlum olub. Həmin vaxt bildirilib ki, Lebedev və onun oğlu qəzeti satmaq qərarına gəliblər. Bu isə kağız versiyalı qəzetlər üçün olduqca pis nümunədir. Əgər dünyaca məşhur bir qəzet kağız versiyasını dayandırırsa, bu, yerli mətbuat üçün də nümunə ola bilərmi?**

**27 illik tarixi olan "Yeni Müsavat " qəzetinin baş redaktoru Rauf Arifoğlu** isə bu gəlişməni bizə açıqlamasında dəyərləndirdi. Dedi ki, əslində dünyada gedən tendensiya anlaşılandır və "İndependent"in atdığı bu addım da dünyadakı print media üçün ciddi siqnaldır: "Lakin hesab edirəm ki, qəzetlərin dəfni ilə bağlı danışmaq hələ tezdir. Çap mediası mümkün olduğu qədər yaşamalıdır. Və onun onlayn media ilə sintezinin imkanları yəqin kı, tapılacaq. Bu, uzun müddətdir müzakirə olunurdu. İndi daha da aktuallaşıb. Çünki dünya ovucun içinə yerləşəcək qədər mobilləşib və bir telefonla artıq bütün xəbərləri anındaca almaq olur. Onu bir gün sonra oxucuya təqdim etmək artıq peşəkarların dediyi kimi, əhəmiyyətini itirir. Lakin çap mediasının da özəllikləri, öz imkanları var. Oxucu ilə paylaşacaq və onlayn medianın edə bilməyəcəyi çox nüanslar var. Ona görə də hesab edirəm ki, dünyada nəhəng print media qalacaq".

**Müsahibimiz Azərbaycandakı çap mediasnın durumunu da qiymətləndirdi. Dedi ki, bizdə onsuz da vəziyyət çoxdan ağır idi:** "Bu ağırlıq onlayn medianın print medianı üstələməsi ilə bağlı deyil. İqtisadi cəhətdən print medianın əsasən tənqidçi yönümü olmasının ona yaratdığı problemlərdən qaynaqlanan məsələlər ağırlıq yaradır. "Yeni Müsavat" da bu çətinliklərdən xali deyil. Biz də bir neçə ildir ki, ciddi sarsıntılar yaşayırıq. Azərbaycanda print media dayansa, bu, onlayn medianın onu üstələməsi və menecerlərin bununla bağlı verdiyi qərarlara görə olmayacaq. Bu, onun davam etməsinin mümkün olmadığını şərtləndirən detal olacaq. "Yeni Müsavat" qəzetinin çap versiyasını müəyyən müddət dayandırmaq haqda biz də düşünürük. Çünki vəziyyətimiz olduqca çətindir. Amma mümkün qədər fədakarlıq edərək, bu durumu uzatmaq haqqında da düşünürük, müqavimət göstəririk. Çünki "Yeni Müsavat"ın 27 illik tarixi var. Bu, Azərbaycanın ikinci cümhuriyyət olmasından daha yaşlı bir tarixdir. Buna görə də istərdik ki, çap mediası dəfn olunmasın. Onlayn medianı da paralel gücləndirərək, gələcəyə hazırlaşmaq və gələcək kateqoriyasında da öz yerimizi tutmaq haqqında qərarlıyıq".

❑ Sevinc TELMANQIZI

# Rüstəm İbrahimbəyov hələ də Bakıdadır

## Kinorejissor Azərbaycana gəlməsinə imkan yaradanlar, özünə qarşı hansısa maneənin qalıb-qalmadığı haqda "Yeni Müsavat"a nə dedi?

**Milli Şuranın fəxri sədri, Rusiya paytaxtında yaşayan xalq yazıçısı, kinorejissor Rüstəm İbrahimbəyov üç illik fasilədən sonra Azərbaycana gələ bildi. Qardaşı, yazıçı Maqsud İbrahimbəyovun dəfn mərasimində iştirak edib-etməyəcəyi sual altında olsa da, yazıçı martın 23-də Bakıya gəldi.**



Xatırladaq ki, hələ R.İbrahimbəyov Milli Şuranın sədri olarkən, 2013-cü ildə prezidentliyə namizədliyini irəli sürəndən sonra ona cinayət işinin açıldığı barədə məlumat yayılmışdı. Konkretləşdirsək, Vergilər Nazirliyi tərəfindən kinorejissorun rəhbərlik etdiyi Kinematoqrafçılar İttifaqında səyyar yoxlamalara başlamış, 2009-cu ildə XI "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalının keçirilməsi üçün ayrılmış pulların mənimsəndiyi barədə rəsmi xəbər yayılmışdı. Fakt üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə başlanmış cinayət işi üzrə Kinematoqrafçılar İttifaqının nümayəndəsi Lalə Əfəndiyevaya ittiham elan olunmuşdu. İttifaqın rəhbəri Rüstəm İbrahimbəyov isə bu ittihamları qurama adlandıraraq, siyasi fəaliyyəti və hakimiyyəti tənqid edən fikirləri ilə əlaqələndirib məqsədin onu susdurmaq olduğunu bildirmişdi. Son nəticədə R.İbrahimbəyovun prezidentliyə namizədliyi qeydə alınmadı və o, mühacirətə yollandı.

Ötən müddət ərzində R.İbrahimbəyovun geri dönəcəyi təqdirdə həbs ediləcəyi haqda dəfələrlə xəbərlər yayılmışdı. Xüsusən hakim partiya nümayəndələri tez-tez belə bəyanatlarla çıxış edirdilər. Qeyd edək ki, prezident seçkiləri ərəfəsində mətbuata verdiyi açıqlamalarda kinorejissor özü də "həbs olunacağımı bilsəm belə, Bakıya gələcəyəm" deyirdi. Hətta o, Milli Şura üzvləri ilə görüşmək üçün Tiflisə gədər gələ bilmişdi. Bu mənada onun uzun fasilədən sonra Bakıya maneəsiz gələ bilməsi suallar doğurub. Odur ki, R.İbrahimbəyova "yaşıl işıq" yandırılmasında kimin rolunun olması çoxlarını maraqlandırır. Düzdür, hakimiyyətin siyasətini birmənalı şəkildə müdafiə edən M.İbrahimbəyovun dəfni yüksək səviyyədə, məhz dövlət tərəfindən həyata keçirildi. Ancaq istənilən halda R.İbrahimbəyovun Bakıya, dəfn mərasiminə qatılmasına yuxarı səviyyədə razılıq verilməsi və önəmli şəxsin qarant durması şübhəsizdir.

Bəzi müşahidəçilər hesab edir ki, kinorejissorun vətənə girişinə problem yaradılmaması son zamanlar ölkədə müşahidə olunan islahatların cəmiyyətə yönəlik açılımın, imzalanan əfv fərmanının, həmçinin bir neçə tanınmış məhbusun azadlığa buraxılması siyasətinin tərkib hissəsidir. Hətta iddialar var ki, hakimiyyət R.İbrahimbəyovla bağlı da sərt siyasətini dəyişməklə daha bir "persona non-qrat"ı neytrallaşdırmış olur. Ancaq "Yeni Müsavat"ın adının çəkilməsini istəməyən mənbədən aldığı məlumata görə, əslində R.İbrahimbəyovun ölkəyə gəlişinə və ölkədən çıxmasına hüquqi baxımdan əvvəldən hər hansı əngəl olmayıb. Bu da onunla bağlıdır ki, R.İbrahimbəyova qarşı ilk gündən heç bir cinayət işi açılmayıb və ona ittiham elan



# Maqsud İbrahimbəyovun yasında iştirak ərtafında dartışma davam edir



olunmayıb. Sadəcə, ittiham R.İbrahimbəyovun xanım işçisinə (Əfəndiyevaya Lalə Kamil qızına Azərbaycan Respublikası CM-in 179.3.2-ci maddəsi ilə ittiham elan olunub) qarşı olub və bu mənada onun giriş-çıxışına məhdudiyyət qoyulmayıb.

Qeyd edək ki, R.İbrahimbəyovun qardaşının dəfnindən sonra ölkəni tərk etdiyi bildirilirdi. Ancaq öyrəndik ki, o, hələ də Bakıdadır. Cəhdlərimiz nəticəsində kinorejissorla telefon əlaqəsi yarada bildik. R.İbrahimbəyov hələ bir müddət Bakıda olacağını desə də, Azərbaycana gəlməsinə imkan yaradanlar, özünə qarşı hansısa maneənin qalıb-qalmadığını açıqlamadı. Kinorejissor "hələ bu barədə danışmaq istəmirəm, qardaşımın 40-ı çıxsın, sonra danışarıq" deməklə kifayətləndi.

**Xalq artisti, Kinematoqrafçılar İttifaqının sabiq katibi Rasim Balayev bildirdi ki, rayonda olduğu və sonradan da səhhətində problem yarandığı üçün M.İbrahimbəyovun yas mərasiminə qatıla bilməyib. R.Balayev R.İbrahimbəyovla da görüşə bilmədiyini bildirdi:** "Bizim heç bir əlaqəmiz yoxdur".

Qeyd edək ki, Milli Şuranın bəzi üzvlərinin M.İbrahimbəyovun yas mərasimində iştirak etməsi müxalifət düşərgəsində qarşılıqlı ittihamlara səbəb olub. Belə ki, əsasən də gənc müxalifətçilər Milli Şuranın sədri Cəmil Həsənli və qurumun Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyevi prinsipsizlikdə suçlayıblar. Qeyd ediblər ki, dəfələrlə müxalifəti məhv etməyə, jurnalist Elmar Hüseynovun başını kəsməyə çağırışlar etmiş bir adamın vida mərasiminə qatılmaq demokratik düşərgəyə, Elmar Hüseynovun ruhuna hörmətsizlikdir. E.Quliyev isə onu və Cəmil Həsənlini Maqsud İbrahimbəyovun yas mərasiminə getməyə görə qınayan müxalifətçilərə sərt cavab verib. ADP sədri Sərdar Cəlaloğlu isə "Cəmil müəllim lazım olanda müxalifətin tərəfində olur, lazım olanda hökumətin yanında dayanır" deyib. Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı E.Quliyevin kəskin ifadələrinin qarşılığında bildirib ki, tənqidə təhqirlə cavab vermək həm də Eldəniz Quliyevin acizliyinin nümunəsidir.

**Ancaq fərqli yanaşmalar da var. Məsələn, AXCP sədri Əli Kərimli və bir sıra digər müxalifət təmsilçilərinin M.İbrahimbəyovun yas məclisinə qatılmamalarına mənfi münasibət bəsləyənlər var. Onların arqumentləri belədir:** "Əgər Rüstəm İbrahimbəyov 2013-cü ildə prezident seçkilərinə qatılsaydı və qalib olsaydı, onda necə, Milli Şurada olmuş və ya bu gün qurumda təmsilçiliyini davam etdirənlər Rüstəm İbrahimbəyovun qardaşının yasında iştirakdan imtina edib, "Maqsud İbrahimbəyov hakimiyyəti müdafiə edirdi"-deyəcəkdilərmi?"

**KXCP sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"a bildirdi ki, yas mərasiminə qatılmayıb:** "Maqsud İbrahimbəyovla parlamentdə olmuşuq, 5 il də bir yerdə işləmişik. Lakin Maqsud İbarhimbəyovun nə parlament fəaliyyəti, nə insani münasibəti şərtləndirməyib ki, mən onun yasında iştirak edim. Yəni onu haqq eləməyib. Hətta bizim yaxşı mənada bəzi toqquşmalarımız da olub. Məsələn, İntizam komissiyasında Rəsul Quliyevin mandatdan məhrum edilməsi məsələsində məşhur çıxışlarımız, toqquşmalarımız olub. Özü etiraf etdi ki, hətta sonuncu kitabımın sponsoru Rəsul Quliyev olsa da, onu müdafiə etməyə cəsarətim çatmadı və mənə təşəkkür etmək istədi. Lakin mən onun təşəkküründən imtina etmişəm ki, cəsarətsiz adamın təşəkkürü gərək deyil. İndi o, haqq dünyasındadır".

**KXCP sədri hesab edir ki, bu kimi polemikanın aparılması ölkədə mövzu qıtlığından irəli gəlir və fikri yayındırmağa xidmət edir:** "Toy-yas məclisləri həm adət-ənənədir, həm də haqq eləməkdir. Məsələn, o qədər haqq eləməyən adam var ki, Fəxri Xiyabanda dəfn olunub". M.Mirəlioğlu əlavə etdi ki, R.İbrahimbəyovun gəlişi ilə əlaqədar yas məclisində iştirak bir başqa məsələdir: "Əgər ölkədə doğrudan-doğruya normal münasibətlər olsaydı - bu məsələdə daha çox təcrübəsi olan, daha çox başsağlığı qəbul edən və cəmiyyətdə tanınanlardan biri kimi deyirəm - onda hamı bir-birinin yasında iştirak etməliydi. Məsələn, KXCP Heydər Əliyevin dəfn mərasimində iştirak haqqında qərar qəbul edib. Heydər Əliyev Elçibəyin vida mərasimində iştirak etdiyinə görə biz özümüzə orada iştirak etməyi borc bilmişik. Amma Maqsud İbrahimbəyov məsələsi sıradan bir məsələdir".

**KXCP sədri sualımızın cavabında bildirdi ki, R.İbrahimbəyov prezident seçilə bilməzdi:** "Ona görə ki, bizi bu oyuna salmışdılar və bu oyun bu gün də davam edir. Əslində onun namizədliyinin irəli sürülməsi İlham Əliyevin prezident seçilməsinə çox böyük kömək etdi. Həm də müxalifətdən kimsənin irəli durmamasından ötrü hazırlanan proje idi və uğurla yerinə yetirildi".

**KXCP sədri necə hesab edir, M.İbrahimbəyovun yasında iştirak edən Cəmil Həsənli haqlıdır, yoxsa iştirak etməyən Əli Kərimli? M.Mirəlioğlu:** "Məncə, iştirak edənlər daha çox haqq qazanırlar. Ona görə ki, bu, bir adət-ənənə və insani borcdur. Cəmil bəy fikrini açıqlayıb, oxumuşam. Eldənizin açıqlaması ilə isə qətiyyən razı deyiləm. İnciməsin, o, artıq bir yamaq kimi görünür. Amma Cəmil Həsənli iştirak etməli idi. Əli Kərimli isə özü bilər".

❑ **Cavid TURAN**

# Eldar Mahmudovun atasının barelyefi söküldü




**Ötən bayram günlərində Bakının Yasamal rayonu ərazisindəki Hüseyn Cavid prospekti 22 ünvanında yerləşən və vaxtilə keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun atası Əhməd Mahmudovun yaşadığı binanın üzərindən onun xatirəsinə qoyulmuş barelyef sökülüb. "Vətəninfo"nun yazdığına görə, barelyefi söküb yerini də elə yamayıblar ki, sanki burada heç nə olmayıb.**

Xatırladaq ki, bundan əvvəl akademik Əhməd Mahmudovun büstü Naxçıvan Muxtar Respublikasının Şərur rayonundakı məktəb-liseyin qarşısından da götürülüb.

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# Avropanın tanıdığı vəkil azadlıqda-sırada o ad da var...

Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev barəsində 5 il şərti cəza müəyyən edilməklə, həbsdən buraxıldı; yaxın zamanlarda jurnalist Xədicə İsmayılovanın işi üzrə də kasasiya şikayətinə baxılacaq; proqnozlar nikbindir...

## Ali Məhkəmə baş prokurorun vəsatətini təmin etdi

**Martın 28-də baş prokuror Zakir Qaralovun Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev barəsində Ali Məhkəmənin Plenumuna verdiyi protest əsasında məhkəmə prosesi keçirildi. Məhkəmə binası önünə vətəndaş cəmiyyətinin çoxsaylı nümayəndələri, media təmsilçiləri, siyasi partiyaların üzvləri və hüquq müdafiəçisinin yaxınları toplaşmışdılar.**



Prosesə xüsusi diqqətin olmasına səbəb günlər öncədən hüquq müdafiəçisinin baş prokurorun protesti əsasında azadlığa buraxılacağı barədə ictimaiyyət arasında gəzən söz-söhbətlər idi. Proses saat 12-də başladı və məhkəmə zalına heç kim buraxılmadı.

Zakir Qaralovun protestini baş prokurorun müavini Namiq Əsgərov müdafiə edirdi.

İki saatlıq plenum iclasından sonra hər kəsin gözlədiyi qərar məlum oldu. Ali Məhkəmənin qərarı ilə hüquq müdafiəçisinin cəzası 5 il şərti cəza ilə əvəzləndi. Məhkəmə İntiqam Əliyevin qərar çıxdığı andan dərhal azadlığa buraxılması barədə də qərar qəbul etdi.

Ali Məhkəmənin Plenumu Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunmaqla İntiqam Əliyevin barəsində olan cəza şərti hesab olunub və onun barəsində 5 il şərti cəza müəyyən edilməklə azadlığa buraxılması barədə qərar qəbul etdi.

Məhkəmənin qərarı hüquq müdafiəçisinə dəstək olmaq üçün məhkəmə binasının önünə toplaşanların alqışlarına səbəb oldu. Hər kəsin üzündən sevinc notları sezilirdi. İ.Əliyevin özü isə prosesə gətirilməmişdi.

**İntiqam Əliyevin vəkili Cavad Cavadov bildirib ki, müdafiə etdiyi şəxsə bəraət verilməsini istəyirlər və bununla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət olunacaq:** “Məhkəmə Cinayət Məcəlləsinin 70-ci maddəsini tətbiq edərək, İntiqam Əliyevin cəzasını şərti cəza ilə əvəzlədi. Onun dərhal həbsdən azad edilməsi barədə qərar qəbul etdi. Günün sonlarına yaxın İntiqam müəllim azad olunacaq. Müdafiə tərəfi olaraq, əvvəlki mövqeyimizdə qalırıq. İntiqam müəllimin işinə bəraətverici əsaslarla xitam verilməlidir.







Amma baş prokurorun protestdə göstərdiyi xəstəliklərlə bağlı məsələyə etiraz etmədik. Amma İntiqam müəllimə bəraət verilməsi tələbimizin üzərində sona qədər dayanacağıq. Bu addımı müsbət qəbul edirik. Bundan sonra növbəti addımımız Avropa Məhkəməsinə müraciət etmək olacaq. Hüquqi müstəvidə atacağımız addımlar davam edəcək. Biz Ali Məhkəmənin Plenumuna İntiqam müəllim barəsindəki qərarın ağır olması barədə kasasiya protesti vermişdik. Bu gün həmin protestimiz də təmin edildi”.

Xatırladaq ki, baş prokuror Zakir Qaralov Hüquq Maarifçiliyi Cəmiyyətinin həbsdə olan sədri İntiqam Əliyevə təyin olunan cəzanın ağır olmasına dair əlavə kasasiya protesti ilə Ali Məhkəməyə müraciət etmişdi.

İntiqam Əliyev Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 192.2-ci (qanunsuz sahibkarlıq) və 179.3.2-ci (mənimsəmə və ya israf etmə) maddələri ilə təqsirli bilinirdi.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İntiqam Əliyev 3 il hər hansı vəzifə tutmaq hüququndan məhrum edilməklə, 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti təmin edilməyib. Bundan sonra İ. Əliyev kasasiya şikayəti ilə Ali Məhkəməyə müraciət etsə də, bu instansiya qurumu da əvvəlki qərarı qüvvədə saxlamışdı.

Ali Məhkəmənin qərarından sonra hüquq müdafiəçisini qarşılamaq üçün onun saxlanıldığı 6 saylı cəzaçəkmə müəssisəsinin önünə axışdı. Lakin 4 saatdan çox gözləmələrinə baxmayaraq, axşam saat 18:00 radələrində məlum oldu ki, İ.Əliyev cəzaçəkmə müəssisəsinin heç kəsə məlum olmayan qapısından evinə buraxılıb. Bu barədə müəssisənin əməkdaşı məlumat verdi. Onun sözləri müəssisə qarşısına toplaşan hər kəsin etirazı ilə qarşılandı. Uzun müddət insanlar cəzaçəkmə müəssisənin qarşısında qaldılar. Onlar verilən xəbərə inanmaq istəmirdilər. Hər kəs hüquq müdafiəçisinin sakit bir şəkildə azadlığa buraxılması üçün belə xəbərin verildiyini düşünürdü. Lakin vəkil Cavad Cavadovun cəzaçəkmə müəssisəsindən çıxması və İntiqam Əliyevin azadlığa buraxılması barədə sözləri xəbərin doğruluğuna inam yaratdı.

**Vəkil bunları dedi:** “Cəzaçəkmə müəssisənin başqa çıxışı yoxdur. Amma bizə dedilər ki, İntiqam Əliyevi artıq azad ediblər. Necə buraxılıb, bu, bizə də məlum deyil. İntiqam müəllimlə içəridə görüşdük. Sonra onu çağırdılar və vəziyyət dəyişdi”.

Bununla da cəzaçəkmə müəssisəsinin rəhbərliyinin həbsxananın önünə çoxsaylı insanın toplaşdığını görüb, hüquq müdafiəçisini arxa qapıdan çıxararaq, evinə göndərdiyi məlum oldu.

Hüquq müdafiəçisinin oğlu Nəcmin Əliyevin telefonla atasının artıq evə çatması barədə cəzaçəkmə müəssisəsinin önünə toplaşanlara xəbər verməsi insanların dağılışmasına səbəb oldu.

**Hüquqşünas İntiqam Əliyevin azadlığa buraxılması ilə bağlı Ali Məhkəmənin qərarına beynəlxalq qurumlardan ilk reaksiya Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntdan gəlib. O, twitter hesabından qərarı alqışlayıb:** “Hüquq müdafiəçisinin azadlığa buraxılması qərarını alqışlayıram. Bu, doğru addımdır” - yazan AŞ PA prezidenti qeyd edib ki, Azərbaycanın məhkəmə sistemi həmişə tam müstəqil fəaliyyət göstərir.

### Xədicə İsmayılova da azadlığa çıxır?

Ali Məhkəmə yaxın zamanlarda jurnalist Xədicə İsmayılovanın işi üzrə kasasiya şikayətinə baxacaq.

Bakı Apelyasiya Məhkəməsinin jurnalist Xədicə İsmayılova haqqında qərarından kasasiya şikayətinə Ali Məhkəmənin hakim Əli Seyfəliyevin sədrliyi ilə baxılacaq.

**Jurnalistin vəkili Fariz Namazlı jurnalistlərə deyib ki, Ali Məhkəmənin Xədicə İsmayılovanın cəzasını yüngülləşdirəcəyinə ümid edirlər:** “Prosesin vaxtı hələ təyin olunmayıb. Kasasiya baxışı nəticəsində Xədicə İsmayılova haqqında müsbət qərar çıxarılacağı ehtimal olunur”.(virtualaz.org)

X.İsmayılova 2014-cü il dekabrın 5-dən həbsdədir.

Bakı Ağır Cinayətlər Məhkəməsi ötən il sentyabrın 1-də Xədicə İsmayılovaya 7 il 6 ay azadlıqdan məhrumetmə cəzası kəsib. Bundan başqa, o, 3 il müddətinə vəzifə tutmaq hüququndan məhrum edilib.

İttihama görə, X.İsmayılova AzadlıqRadiosunun Bakı bürosunun rəhbəri kimi qulluq səlahiyyətlərindən sui-istifadə edib, vergi ödəməkdən yayınıb, xidməti müqavilələr bağlamaqla digərlərinin də az vergi ödəməsinə səbəb olub.

2015-ci il noyabrın 25-də Bakı Apelyasiya Məhkəməsi əvvəlki instansiyanın jurnalist haqqında hökmünü qüvvədə saxlayıb.

Beynəlxalq hüquq təşkilatları jurnalistin azad olunmasını tələb edirlər.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**











Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ötən həftə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində vəziyyət yenidən gərginləşdi, düşmən azğınlıq nümayiş etdirərək hətta dinc sakinlərin yaşadığı kəndlərimizi də mərmi atəşinə tutdu. Martın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qazax rayonu ərazisində dövlət sərhədini pozaraq ərazimizə soxulmağa cəhd göstərib. Düşmənlə döyüşdə silahlı qüvvələrimizin iki hərbçisi şəhid olub.**


Bayram Səfərov



# Cəbhədə gərginlik daha da artır-ermənilər Şuşaya qaçır

## İcma rəhbərindən Qarabağ ermənilərinə “təslim olun!” çağırışı: “Biz onsuz da günün birində Şuşaya gələcəyik, onda hara qaçacaqsınız?!”

## Hərbi ekspert Üzeyir Cəfərov: “Azərbaycan Silahlı Qüvvələrinin cavab addımları çox amansız və ağır olacaq”

Azərbaycan Müdafiə Nazirliyi zabit və əsgərimizin düşmənin diversiya həmləsinin qarşısını alarkən şəhid olduğunu təsdiqləyib. Nazirliyin yaydığı məlumatda bildirilir ki, son günlər işğal olunmuş ərazilərdə xeyli sayda itkilərə məruz qalan erməni tərəfi uğursuzluqlarının əvəzini çıxmağa can ataraq Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi təxribatların sayını artırıb: “Əməliyyat şəraitində üstünlüyü itirən düşmən dövlət sərhədində gərginliyi artırmaqla bəzi beynəlxalq qurumları, o cümlədən Ermənistanın üzv olduğu hərbi-siyasi təşkilata daxil olan dövlətləri də münaqişədə iştiraka sövq etməyə çalışır. Martın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qazax rayonu ərazisində dövlət sərhədini pozaraq ərazimizə soxulmağa cəhd göstərib. Bu istiqamətdə yerləşən bölmələrimizin sayıqlığı nəticəsində düşmənin hərəkəti qabaqcadan aşkar edilib və qarşısının alınması məqsədilə müvafiq tədbirlər həyata keçirilib. İtkilərə məruz qalan işğalçılar geri çəkilməyə məcbur edilib”. Məlumatda bildirilir ki, düşmənlə baş verən döyüş toqquşmasında silahlı qüvvələrimizin zabiti, leytenant Zülfüqarlı Qalib Laim oğlu və əsgər Hacıyev Qəfərəli İntiqam oğlu şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərin yaxınları və əzizlərinə dərin hüznlə başsağlığı verib və səbir diləyib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə hər iki hərbi qulluqçu ölümündən sonra “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı ilə təltif edilib. Müdafiə Nazirliyi bildirir ki, həmin istiqamətdə əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır. Azərbaycan tərəfi bütün beynəlxalq təşkilatları növbəti dəfə ermənilərin təxribatlarını qınayaraq baş verənlərə müvafiq qiymət verməyə çağırır.

Ermənistan Müdafiə Nazirliyi isə itkiləri gizlətməkdədir. Qeyd edək ki, ötən həftə sonu Azərbaycan Müdafiə Nazirliyi düşmən mövqelərinə artilleriya-minomyot zərbələrinin endirilməsi kadrlarının pilotsuz uçan aparatdan çəkilmiş görüntülərini yaymışdı. Həmin zərbələr nəticəsində düşmənin ən azı bir hərbi maşınının yanaraq məhv olduğu, həmçinin işğalçı ordunun səngərlərində eyni vaxtda bir neçə mərminin partladığı aydın görünürdü.

***

Qarabağdakı gərgin vəziyyət bir sıra ölkələrin mediasının diqqət mərkəzindidir. Türkiyə mətbuatı Azərbaycan-Ermənistan sərhədindəki döyüşlərdən və ordumuzun şəhidlər verməsindən yazıb. Rusiyanın gazeta.ru portalının müxbiri isə Qarabağdan reportaj hazırlayıb. Reportajda Qarabağ münaqişəsinin tarixçəsindən bəhs edilir və onun dünyada analoqu olmayan münaqişə olduğu bildirilir. Virtualaz.org xəbər verir ki, rusiyalı jurnalist Aleksandr Rıbin Qarabağdakı erməni işğalçı qüvvələrinin zabitlərinin müşayiəti ilə düşmənin təmas xəttinin Ağdam istiqamətində yerləşən mövqelərindən birində olub. O yazır ki, erməni qüvvələrinin müdafiə sistemi bir neçə xətdən ibarətdir: tranşeylər, artilleriya və texnika üçün mövqelər. Müdafiə xətlərinin arasında dağıdılmış kəndlərin xarabalıqları yerləşir. Ətrafda geniş çöllərdir, əkin-səpin yoxdur. Ancaq yaxınlıqdakı kəndlərdən ermənilər ora heyvan otarmağa gəlir. Atışma başlayan kimi hərbçilər heyvanları və çobanları evakuasiya edir.

Jurnalist yazır ki, təmas xəttindəki erməni mövqelərinə getmək üçün üç il əvvəl qazılan xəndək-yollarla hərəkət etmək lazımdır. Yoldan bir neçə kilometr aralıdan dərin tranşeylər başlayır, onlarla ancaq piyada getmək mümkündür. Tranşeylərin divarları və dibi çox güman ki, Ağdamın talan edilən üzümlüklərindən sökülüb daşınmış beton dirəklərlə döşənib. Müxbiri müşayiət edən Aşot adlı mayor deyib ki, mövqeləri betonla iki il əvvəldən başlayaraq bərkidiblər. Çünki torpaq örtük minomyot zərbələrinə davam gətirmir. Jurnalist ermənilərlə də həmsöhbət olub. **“Yeməkxana da əvvəl açıqda idi, ancaq bağlamaq, betonlamaq lazım gəldi. Yeməkxananın damı ağır artilleriyanın ən azı bir zərbəsinə davam gətirə və döyüşçülərə öz mövqelərini tutmağa imkan verə bilər”**-Aşot deyib. Daha sonra rusiyalı jurnalist Xankəndindən və Şuşadan bəhs edir, Şuşanın “xəyalət şəhərə” çevrildiyini yazır. Bildirilir ki, müharibəyə qədər şəhərdə 50 mindən çox azərbaycanlı yaşayırdı, indi isə xarabalıqdır. Şəhərin təkcə mərkəzi küçəsi asfaltlaşdırılıb və hazırda Şuşada 5 minə qədər erməni yaşayır. Qalan küçələr və məhəllələr isə xarabalıqdır, şəhərin qədim məscidləri də dağıdılıb. Çoxmərtəbəli binalar xarabalıqlara çevrilib, yarıuçuq vəziyyətdədir. Müxbir yazıb ki, döyüşlər qızışandan bəri təmas xəttinə yaxın kəndlərdən ermənilər qaçıb Şuşaya yerləşir: **“Məsələn, martın əvvəlindən Xocavənd rayonunun kəndlərindən Şuşaya qaçanlar var. Onlardan biri-Ani adlı erməni qadın deyir ki, mərmilər evinə çox yaxın başladığından martın əvvəllərində Şuşaya yerləşib. Bildirilir ki, Şuşada Suriyadan olan 60-a yaxın erməni ailəsi də məskunlaşdırılıb”.** Jurnalist xatırladıb ki, 90-cı illərin əvvəllərində Suriya ermənilərı də döyüşmək üçün Qarabağa gəlmişdi. Rusiyalı jurnalist belə qənaətə gəlir ki, Qarabağ münaqişəsini həll etmək Suriya münaqişəsinin həllindən daha qəliz görünür...

**Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov “Yeni Müsavat”a dedi ki, Qarabağda yaşayan azsaylı ermənilər bu torpaqların Azərbaycana məxsus olduğunu yaxşı bildikləri üçün özlərini “tikan üstündə oturmuş” kimi hiss edirlər:** “Son vaxtlar Azərbaycan ordusunun düşmənə sarsıdıcı zərbələr vurması erməniləri ciddi şəkildə təşvişə salıb. Ermənilər bilir ki, onların arxasında dayanan qüvvələr onları sonadək müdafiə etməyəcək. Üstəlik də ermənilər orduya etibar etmədikləri üçün gərginlik yaranan kimi Şuşaya qaçıb orada gizlənirlər. Hər halda, Şuşa hündürlükdədir və cəbhədən oraya 50 km-lik məsafə var. Amma orda bir ovuc erməni yaşayır, tək-tük adam qalıb. Kimdir onlara Şuşada normal şərait yaradan? Lap deyək ki, qaçıb Şuşada zirzəmilərdə gizləndilər, nə vaxta qədər gizlənəcəklər?” **B.Səfərov Qarabağdakı ermənilərə növbəti dəfə çağırış etdi:** “Özünüzü ağıllı aparın ki, normal vəziyyətdə yaşayasınız! Bunun üçün çox şey lazım deyil, Azərbaycan qanunlarına tabe olun, normal şəraitdə yaşayın. Əks halda, başqa variant yoxdur, onsuz da biz öz torpaqlarımızı qaytaracağıq. Əgər siz Şuşada, özü də təhlükəsiz yaşamaq istəyirsinizsə, Azərbaycan bayrağının altına keçin, Azərbaycan xalqı ilə birgə, normal şəkildə yaşayın! Şuşaya hara qaçırsınız? Biz onsuz da günün birində Şuşaya gələcəyik, onda hara qaçacaqsınız? Şuşadakı cinayətkar rejimin qucağına hara qaçırsınız?”

**Rus jurnalistin yazdıqlarını şərh edən hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, jurnalist real situasiyanı çatdırıb:** “Erməni əhalisi, nəhayət, açıq şəkildə başa düşür ki, cinayətkar Serj Sərkisyan komandası üçün istər Ermənistanın özündə, istərsə də işğal edilmiş Azərbaycan ərazilərində zorla məşkunlaşdırılan şəxslərin taleyi heç bir önəm daşımır. Elə onların yavaş-yavaş ərazilərdən uzaqlaşması da onu deməyə əsas verir ki, əhali sonda çox ağır nəticələrin olacağını hiss edir. Ona görə də onlar bacardıqca həm Ermənistanı, həm də aldadılaraq məskunlaşdırıları ərazilərdən sözün həqiqi mənasında qaçırlar”. **Ü.Cəfərov ermənilərin təşvişini məntiqli sayır:** “Çünki Ermənistanın son vaxtlar cəbhə bölgələrinin müxtəlif istiqamətlərində əl atdıqları təxribatlardan cana doyan Azərbaycan Silahlı Qüvvələrinin cavab addımları çox amansız və çox ağır olacaq. Başlaya biləcək ciddi əməliyyatlardan ziyan çəkənlərdən biri də həmin şirin vədlərlə işğal altında olan ərazilərdə məskunlaşdırılan əhali ola bilər. Bu da onları çox ciddi narahat edir”.

Qeyd edək ki, Azərbaycanın işğal altındakı ərazilərinə rəsmi Bakının icazəsi olmadan səfərlər edənlər bir qayda olaraq XİN-in “qara siyahısı”na salınır. Rusiyalı jurnalist ermənilərin acınacaqlı durumunu çatdırmaq baxımından obyektiv vəziyyəti əks etdirən yazı hazırlasa da, hər halda, o, Azərbaycan qanunlarını kobud şəkildə pozub. Deməli, bunun cavabı olmalıdır.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev “Yeni Müsavat”a bildirdi ki, gazeta.ru-nun əməkdaşı Aleksandr Rıbinin hazırladığı yazı ilə tanışdır:** “Materialdam belə təəssürat yaranır ki, jurnalist qeyri-qanuni şəraitdə Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edib. Məsələ araşdırılacaq və bu araşdırmanın nəticəsində təsdiqlənsə ki, o, həqiqətən işğal olunmuş ərazilərə səfər edib, onun adı ”qara siyahı"ya daxil ediləcək". H.Hacıyev onu da bildirdi ki, hazırda “qara siyahı”da 530-a yaxın şəxsin adı var.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY




# Radikal dindarın çağırışına rəsmi reaksiya gəldi

**Mübariz Qurbanlı:** "Əlixan Musayev kimi adamların o cür çağırışları ilə hüquq-mühafizə orqanları məşğul olmalıdır"

**Azərbaycanda radikal dini lider kimi tanınan Əlixan Musayevin yayılmış gizli səs yazısı ictimaiyyətdə böyük narahatlıq doğurub. Qeyd edək ki, Əlixan Musayevə məxsus olduğu iddia edilən səs yazısında dindarlar Suriyada cihada qatılmağa dəvət edilir, orda döyüşənlər şəhid adlandırılır:**

"Sən getmirsənsə, bu başqa məsələ, bunun səbəbi var. Səbəbin birincisi odur ki, orda gedən cihad oranın əhli üçün vacibdir... Ayıbdır. Qorxursansa deməyə ki, onlar Allah yolunda vuruşur, mücahiddir, inşallah şəhiddir, onlar cənnətlikdir, əleyhinə də demə də, qardaş. Sabah şəhidlər sənin xirtdəyindən yapışacaq ki, nəyə görə sən mənim haqqıma girirsən?.. Bütün müsəlmanlar ayağa qalxıb müsəlman qardaşlarına kömək etməlidir".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məsələyə öz münasibətini bildirib. APA-ya açıqlama verən qurum sədri bu cür fikirlər səsləndirənlərin İslama aid olmayan, İslamı parçalanmaya sövq edən adamlar olduğunu bildirib. Mübariz Qurbanlı vurğulayıb ki, Əlixan Musayev və onun kimi adamların o cür çağırışları ilə hüquq-mühafizə orqanları məşğul olmalıdır.

**M. Qurbanlı onu da əlavə edib ki, səs yazısı komitə tərəfindən də araşdırılacaq:** "Bizim eskpertiza bunu araşdıracaq və ekspertizanın nəticəsində biz aidiyyəti orqanlara müraciət göndərəcəyik".

Bəs bu cür dini çağırışlar edən şəxsləri qanunla necə cəza gözləyir? Qanunda bu məsələ necə tənzimlənir?


Mübariz Qurbanlı

**Hüquq müdafiəçisi Müzəffər Baxış bununla bağlı müsavat.com-a açıqlama verib. Hüquq müdafiəçisinin sözlərinə görə, qanunla bu məsələ Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 283-cü maddəsi ilə tənzimlənir:** "Bu maddəyə əsasən, Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçirmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə doqquz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər yetkinlik yaşına çatmayan şəxsi cəlb etməklə törədildikdə on iki ildən on beş ilədək, qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə isə yeddi ildən on bir ilədək müddətə, habelə bu cür məzmunlu materiallar yayma beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yalnız hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin maddələrdə nəzərdə tutulan əməllərin qarşısının alınmasına yardım etdikdə və əməlində başqa cinayətin tərkibi olmadıqda həmin şəxslər cinayət məsuliyyətindən azad edilir".

Xatırladaq ki, bundan öncə də Əlixan Musayevin təşəbbüsü ilə 500-dən çox azərbaycanlının Suriyada İŞİD tərkibində döyüşlərə qatıldığı barədə məlumatlar yayılmışdı. Lakin dini lider haqqında yayılan iddiaları təkzib edərək bildirmişdi:

"Suriyadakı hazırkı şəraitdə gedən döyüşlərə qatılmaq sələf əqidəsinə ziddir. Həmçinin bununla bağlı dəlilə əsaslanan bir cihad fətvası da yoxdur. Əgər kimsə Suriyaya gedib əlinə silah alıb vuruşursa, fitnəyə uymuşdur. Bir daha bütün azərbaycanlı müsəlmanlara səslənərək bəyan edirəm ki, Qarabağ kimi poroblemi olan vətənimizi tərk edib Suriyada bəlli olmayan məqsədlər üçün pərdəarxası qüvvələrə xidmət etməkdən, ən acınacaqlısı isə canlarını boş yerə fəda etməkdən vaz keçsinlər".

❑ Xalidə GƏRAY



# Tofiq Yaqublunun AXCP ilə barışıq təşəbbüsünə Müsavatdan cavab

"O cür çıxış etməsi onun öz şəxsi mövqeyini ifadə etməsidir"


Gülağa Aslanlı

**Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu həbsdən azad olunduqdan sonra mediaya verdiyi müsahibələrində Müsavatla AXCP arasında münasibətlərin pozulmasından təəssüfləndiyini və narahat olduğunu bildirib. Tofiq Yaqublu qeyd edib ki, müxalifətin iki aparıcı partiyasının bir-birindən uzaq olması, əməkdaşlıq etməməsi cəmiyyətdə demokratik qüvvələrə münasibətə, demokratiya uğrunda mübarizəyə mənfi təsir göstərir. Ona görə də Tofiq Yaqublu Müsavat Partiyası ilə AXCP-ni barışdırmağa, bu iki partiya arasında münasibətlərin yaxşılaşmasına təşəbbüs göstərəcəyini bəyan edib.**

Bəs Tofiq Yaqublunun başqan müavini olduğu Müsavat Partiyasının rəhbərliyi onun bu təşəbbüsünə necə yanaşır?

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bildirdi ki, Tofiq Yaqublu həbsdən azad olunduqdan sonra hələ nə partiya Divanının iclasında, nə də müavinliyin toplantısında iştirak eləməyib. Ona görə də o, müsahibələrində qeyd etdiyi məsələni partiyada qaldırmayıb və məsələ də bu səbəbdən müzakirə olunmayıb. Tofiq bəy iclasda iştirak edəndə məsələni rəsmi olaraq qaldırarsa, yəqin ki, müzakirə olunar və partiya mövqeyini bildirər.

**"Müsavat Partiyası ilə AXCP arasında münasibətlər düşmənçilik səviyyəsinə qədər pozulub, yoxsa sadəcə soyuqluq yaşanır" sualına G.Aslanlı belə cavab verdi:** "Bizim heç kimlə düşmənçiliyimiz yoxdur. Müsavatın rəqibi Yeni Azərbaycan Partiyasıdır, hakimiyyətdir. Biz hər hansı bir partiyanı özümüzə düşmən saymırıq. Sadəcə olaraq, Tofiq Yaqublunun bir çox məsələlərdən məlumatsız olduğundan o cür çıxış eləməsi onun öz şəxsi mövqeyini ifadə etməsidir. Əgər Tofiq bəy özü o məsələni qaldırsa biz müzakirə edərik".

❑ E.SEYİDAĞA

# "Qubad İbadoğlu heç kimin yanında gözükölgəli deyil"

**Ellada Məmmədli:** "Siyasətlə məşğul olan şəxs onu qarşıda nələr gözləyə bildiyini dəqiqləşdirdikdən sonra siyasətə gəlir"...



**ADR Hərəkatının sədri Qubad İbadoğlu bir ildən artıq yaşadığı ABŞ-dan Azərbaycana qayıtmağa qərar verib. Müsavat Partiyasının qurultayında sədr seçilmədikdən sonra hərəkat yaratmağa qərar verən iqtisadçı az sonra ABŞ-a gedərək Duke Universitetində işləməyə başlayıb. Onun mühacirətə getdiyi barədə xəbərlər olsa da, bir müddət sonra Q.İbadoğlu açıqlama verərək universitet qarşısında öhdəlikləri olduğunu və 2016-cı ilin martında işlərini yekunlaşdırıb ölkəyə dönəcəyini açıqlayıb. Artıq Q.İbadoğlu ölkəyə gəlmək qərarı verib. ADR-in sədr müavini Ellada Məmmədli musavat.com-un bu istiqamətdə suallarını cavablandırıb.**

***- Qubad İbadoğlu ölkəyə qayıdır. Bunu ADR-çilər necə qarşılayır?***


Ellada Məmmədli

- Bilirsiniz ki, Qubad bəy yeni təqvim ilində Bakıda idi. Onun hər Bakıya dönüşü ADR-çilər üçün bayramdır.

***- O, ölkədə olmadığı müddətdə ADR üzvləri hansı işləri görüblər?***

- Qubad bəy ölkədə olmadığı müddətdə ADR Hərəkatının iki Məclis sessiyası keçirilib, yeni təşkilat komitələri yaradılıb. Ölkədə və dünyada baş vermiş siyasi proseslərə münasibət bildirilib. Ölkə daxilində olan müxalifyönlü təşkilatlarla əməkdaşlıq edilib. Məclis sessiyasında "İqtisadiyyatda təxirəsalınmaz iqtisadi təkliflər paketi"ni qəbul edərək, dövlət qurumlarına göndərmişik və cavab da almışıq.

***- ADR-lə bağlı hansı planlar var?***

- Bilirsiniz ki, ADR Hərəkatı bir yaşını yeni qeyd etməsinə baxmayaraq, nizamnamə və məramnaməsində olan öhdəlikləri həyata keçirməklə məşğuldur. Bunun da əsas qayəsi təşkilatlanma, portfelləşmə və şəbəkələnmədən ibarətdir. Bu il üçün qəbul əsas fəaliyyət proqramı üzrə hərəkət etmək nəzərdə tutulub.

***- ADR-in partiyaya çevrilməsi realdırmı? Bununla bağlı hansısa müzakirələr olubmu?***

- ADR Hərəkatının indiki dövr üçün partiyaya çevrilmək niyyəti yoxdur.

***- Q.İbadoğlunun həbs təhlükəsi olduğu üçün ölkəni tərk etdiyi bildirilirdi. Onun gəlişinə də münasibət birmənalı deyil. ADR-çilər ADR-in hakimiyyətyönlü mövqe sərgiləyəcəyindən narahat deyilmi?***

- ADR Hərəkatı Azərbaycan Demokratiya və Rifah sözlərini özündə ehtiva etməklə, yalnız öz millətinin gələcəyi üçün çalışan bir ictimai təşkilatdır. Qubad bəyə gəldikdə isə siyasətlə məşğul olan şəxs onu qarşıda nələr gözləyə bildiyini dəqiqləşdirdikdən sonra siyasətə gəlir. Qubad bəy 20 ildir siyasətdə vardır və ölkənin bütün ağrı-acılı hissəsini yaşamış şəxsdir. Hadisələrin necə inkişaf etməsi onu heç vaxt narahat etməyib və etməyəcək. O, heç kimin yanında gözükölgəli deyil.

❑ RÖYA



# Proqnozlar ölkəsi - yeni durum

Zamin HACI
zaminhaci@gmail.com

**Siyasi dustaqların hamısını yavaş-yavaş, müxtəlif üsullarla azadlığa buraxmağa başlayıblar, adam o qədər sevinir, lap başımızı itirmişik. Bizim ölkədə onsuz da orta hədd yoxdur, ya sevincdən, ya kədərdən mütləq başını itirməlisən.**

Prinsipcə, başsız yaşamaq daha rahat olur - baş ağrısı, diş ağrısı, yalan danışmaq, görüb susmaq, eşidib görməzliyə vurmaq və sairə belə xroniki xəstəliklərdən canın qurtarır. El müdrikliyimiz olan “başını aşağı sal, işini gör” cümləsi də elə başı hardasa aşağılara salıb, itirib rahat olmağın yaratdığı ictimai situasiyanın təsviridir. Mənim belə fəlsəfi düşüncələrim çoxdur, başım xarab olmasa hamısını uca millətimizə bəyan edəcəyəm. Bilik paylaşdıqca artırmış. Fikir - adamı minir. Birini gör fikir eylə, birini gör şükür eylə. Yüz fikir bir borcu ödəmir. Oxuyub alim olacaqsan, gözünü xarab eləmə!?

Dünən də vəkil İntiqam Əliyev şərti cəza ilə azadlığa buraxıldı, çox sevindik. Görkəmli Azərbaycan ziyalısı olan İntiqam bəyin azadlığı xəbəri hazırda azadlıq hücrəmiz kimi qalan sosial şəbəkələrdə ildırım sürəti ilə yayılırdı, hər kəs bunu başqalarına çatdırmaq istəyirdi. Mən isə bir müşahidəmi bölüşmək istərdim.

Yuxarıda yazdığım kimi, hökumət siyasi dustaqları fərqli üsullarla zindana saldığı üçün fərqli üsullarla da buraxır. İşdə bir rəngarənlik vardır, boz həyatımızı rövnəqləndirirlər. Örnək üçün, bir müxalifətçini nəşə ilə şərləyib tutmuşdularsa, başqasını “Molotov katleti”nə *(Səyavuş Novruzovun ixtira elədiyi yandırıcı maddə növüdür)* bulaşdırıb damlamışdılar. İndi azadlığa çıxmaq üçün də fərqli metodlar seçilir. Bəziləri əfvlə, bəziləri məhkəmə qərarıyla buraxılır. İntiqam Əliyevin azadlığı isə ümumiyyətlə unikal üsulla oldu: onun haqqındakı məhkəmə qərarından birbaşa Zakir müəllim - baş prokuror şikayət eləmişdi! Zakir müəllim Ali Məhkəməyə yazmışdı ki, məhkəmənin İntiqam müəllim haqda qərarı çox ağırdır, görün bunu azalda bilərsinizmi. Protest vermişdi! Təsəvvür edirsinizmi? Baş prokuror adamlara ağır cəza verilməsindən şikayətlənir. (Bir-iki belə protest çıxsa, mənim ağzım əyiləcək).

Ta deyən yoxdur ki, qardaş, bunun dövlət ittihamçısı elə sənin prokurorların idilər, nə üçün bu kişiyə iki ildir əzab verib türmədə saxlayırdınız, niyə tutmuşdunuz ümumiyyətlə? Əlbəttə, baş prokuror verən azadlığın dişinə baxmazlar, buna da şükür. Guya İntiqam bəyi şaqqalayıb İçərişəhər darvazalarından assaydılar, neyləyə bilərdik? Odur, Sumqayıt polisi bir gənci mitili çıxana qədər döyüb, boynuna ölüm işini qoymaq istəyirmişlər, axırda başqasının boynuna qoyub bunu buraxıblar, gəncin dəhşət dolu intervüsü neçə gündür internetdə dolaşır - kimin vecinədir? Heç kimin. Uca millətimizdən soruşsan hələ buna da ata sözü hazırdır: “Günah həmişə öləndə olur, təqsiri olmasa döyməzdilər”.

Mən əfv fərmanı zamanı müstəqilliyimizin azalmasından narahatlığımı hörmətli oxuculara çatdırmışdım. İndi İntiqam Əliyevin azadlığa çıxması prosesində isə başqa bir mənfi, destruktiv halı müşahidə eləmişəm, istəyirəm sizinlə bölüşüm, birgə narahat olaq. Tək mənim borcum deyil, zəhmət çəkin hamınız fikirləşin.

Deməк, Azərbaycanın dünyada analoqu olmayan siyasətinin önəmli cəhətlərindən biri nə idi? Ay sağ olasan: proqnozların mümkünsüzlüyü! Heç kim deyə bilməzdi Azərbaycan hakimiyyəti beş dəqiqə sonra hansı qərarı verəcək. Kimi tutacaqlar, kimi buraxacaqlar. Avropaya tərəf gedəcəyik, yoxsa İrana tərəf. Qatıq dövlət fərmanı ilə qara elan ediləcək, yoxsa tarixi narıncı rəngində qalacaq. Elə bu gözlənilməzlik də iqtidarın əsas silahı idi! Hamını öz qərarları ilə çaşbaş qoyurdular, bilmirdin bu nə ölkədir, sabah başımıza nə gələcək. İntiqam bəyin azadlığını isə bir həftə qabaqdan - Qaralov protest verəndən hamı bilirdi. Hər cür burnu fırtıqlı, aşırma şalvarlı uşaq-muşaq internetdə, sosial şəbəkədə yazırdı ki, inşallah, sabaha-birigünə İntiqam müəllim azadlığa çıxır. Bu da çıxdı.

Şair demişkən, bu yaz nəsə bir başqa yazdır. Həm sevinirik, artıq proqnoz edilən ölkəyə çevrilirik, həm də sivil dünyaya oxşamağa başlamağımız düşündürücüdür. Mentalitetimiz əldən gedəcək.

# İqtidar yenidən qərbyönümlü siyasətə qayıdır

## Yaxud eyni vaxtda bütün əks qütblərlə dil tapmaq cəhdləri sonadək fayda verəcəkmi?

**Son zamanlar Azərbaycanın xarici siyasətində olduqca korrekt davranması, hər hansı tərəfi qıcıqlandırmamaq siyasətinə üstünlük verməsi diqqət çəkir. Prezident İlham Əliyevin İran və Türkiyə səfərinin ardınca Vaşinqtona gözlənilən səfərini hətta şimal qonşumuzun anlayışla qarşılaması xarici siyasətlə bağlı olduqca səliqəli düzənin mövcudluğunun təsdiqidir.**

Qeyd edək ki, martın 31-də prezident İlham Əliyevin Vaşinqtonda keçiriləcək IV nüvə təhlükəsizliyi sammitində iştirak etmək üçün ABŞ-a səfər edəcəyi gözlənilir. Azərbaycan prezidenti hələ ötən ilin dekabrında amerikalı həmkarı Obamadan sammitə dəvət məktubu almışdı. Rəsmi Bakı illərdir ki, balanslı xarici siyasətə üstünlük verdiyini bəyan edir və Qoşulmamaq Hərəkatına üzv olmaqla bu mövqeyini təsdiqləyib. Düzdür, bəzi müşahidəçilər bu siyasətin sonadək müsbət nəticələr verəcəyinə o qədər də inanmır. Odur ki, yolayrıcında olan Azərbaycanın seçim etməsini zəruri sayırlar. Lakin görünən budur ki, Bakı əks qütblərdən birini qıcıqlandırmamaq üçün maksimum səy göstərir. Elə son zamanlar balanslı siyasi kursa nümayişkaranə şəkildə üstünlük verilməsi də bunun təsdiqidir. Görünən budur ki, Azərbaycan ona qarşı təsir imkanları olan bütün ölkələrlə münasibətləri qaydasına salmaq siyasətini davam etdirir. Hətta Ankara-Moskva münasibətlərindəki gərginliklər fonunda Bakı neytrallığını saxlamaqla yanaşı, zəruri olan addımları belə atır. Məsələn, prezident İlham Əliyevin Ankaraya son səfəri və prezident Ərdoğanla bir sıra sazişlər imzalaması da bunun təsdiqidir. Hər halda, müşahidələr göstərir ki, Bakı Moskvanı neytrallaşdırmağı bacardığı üçün şimaldan onun bu addımlarına sərt reaksiyalar gəlmir.

Rusiya ilə normal qonşuluq siyasətinə sadiqliyini nümayiş etdirən Azərbaycanın Avropa ölkələri və təşkilatları ilə mühüm razılaşmalar imzalaması, TAP və TANAP layihəsi ilə bağlı “21-ci əsrin müqaviləsi” sayılan razılaşmanın əldə olunması da kifayət qədər ciddi hadisədir. Bütün bunlar onu deməyə əsas verir ki, Bakı yenə də balanslı siyasətə qayıdılır. Bəs regiondakı gərgin situasiyanın fonunda balanslı siyasət özünü doğruldacaqmı?

**Politoloq Şahin Cəfərli “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan əslində balans siyasətindən heç vaxt imtina etməyib:** “Zaman-zaman Rusiya ilə, zaman-zaman isə Qərblə yaxınlaşmaq balans siyasətindən imtina etmək



**Şahin Cəfərli:** “Qərb də Bakıdan Rusiya ilə münasibətlərdə konfrontasiyaya səbəb olacaq qəti addımlar atmağı tələb etmir”

mənasına gəlmir. Avropa Birliyinin ”Şərq Tərəfdaşlığı” proqramının 2013-cü ilin noyabrında keçirilən Vilnüs sammiti ərəfəsində strateji seçim məsələsi ciddi şəkildə Azərbaycan qarşısında dayanmışdı. O vaxt Avropa Birliyi ilə assosiasiya sazişinin imzalanması məsələsi gündəlikdə idi. Azərbaycan rəhbərliyi assosiasiya sazişinə imza atmayaraq öz xarici siyasət kursunda radikal dəyişiklik etməyəcəyini və qlobal geosiyasi rəqabətdə tərəf olmayacağını ortaya qoydu. Burada bir məqamı qeyd etmək lazımdır ki, iqtidar assosiasiya sazişindən imtinasını heç də qərbyönlü kursdan imtina kimi izah etmədi. Bildirildi ki, saziş layihəsində Gürcüstan və Moldovadan fərqli olaraq, Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək yox idi və imtinanın əsas səbəbi bu olub. Təbii ki, hakimiyyətin qərarında bu amil də rol oynayıb, lakin əsas səbəb şübhəsiz ki, Rusiya faktoru idi”.

**Ş.Cəfərlinin sözlərinə görə, Qərbin xeyrinə birmənalı seçim Moskvanın aqressiv münasibətinə səbəb ola bilərdi:** “Rusiyanın Azərbaycana çox ciddi təsir-təzyiq imkanlarının olduğunu etiraf etmək lazımdır. Bu sırada Dağlıq Qarabağ münaqişəsi, ümumilikdə erməni məsələsi ilə yanaşı, talış, ləzgi kartlarını, daxildəki “5-ci kolonu”, Rusiyada çalışan azərbaycanlı əmək miqrantlarının geri göndərilməsi ehtimalını qeyd etmək olar. Rusiya xüsusi xidmət orqanlarının Azərbaycan daxilində törədə biləcəyi ən müxtəlif diversiya aktlarını da nəzərə alsaq, təhlükənin miqyasını daha yaxşı dərk edə bilərik. Sözsüz ki, hakimiyyət öz qərarlarında bu ehtimalları nəzərə alır. Xatırlayırsınızsa, Vilnüs sammitindən sonrakı dövrdə Qərblə münasibətlərin soyuması paralel olaraq Rusiya ilə yaxınlaşma meyllərinin ortaya çıxması belə bir rəylərə səbəb olmuşdu ki, Azərbaycan artıq şimala üz tutur, Moskvanın xeyrinə seçim edir. Mən o vaxt sosial şəbəkədə gedən müzakirələrdə Rusiya ilə münasibətlərin istiləşməsinin hələ strateji seçim anlamına gəlmədiyini, bu prosesin deklarativ xarakterdən uzağa getmədiyini və hər hansı müqavilə-hüquq bazası ilə müşayiət olunmadığını söyləyirdim. Əslində hakimiyyət Vilnüs sammitindən bir müddət sonra Avropa Birliyinə ikitərəfli strateji əməkdaşıq haqqında müqavilə layihəsi təqdim edərək Qərblə əlaqələrin pozulmasında maraqlı olmadığına dair mesaj verdi”.

**Politoloqun fikrincə, Azərbaycan hakimiyyəti daha çox qərbyönlüdür, nəinki rusiyayönümlü:** “Hakimiyyətin Rusiyanın patronajlığı ilə yaradılan inteqrasiya layihələrində iştirakın ölkənin müstəqilliyinin məhdudlaşması anlamına gəldiyini çox yaxşı anladığını düşünürəm. Belə bir yol məqsədəuyğun olsaydı, hələ Heydər Əliyevin vaxtında o yola üstünlük verilərdi. Azərbaycanın əsas iqtisadi-ticarət tərəfdaşı məhz Avropadır, ölkəmizin boru kəmərləri sistemi Qərbə doğru istiqamətlənib. Bu ilin yanvarında ABŞ Milli Təhlükəsizlik Şurasının Avropa üzrə direktoru Çarlz Kapçanın Azərbaycana səfərindən sonra Qərblə münasibətlərdə yeni mərhələnin başlandığını söyləmək mümkündür. Diqqət yetirdinizsə, həmin səfərdən sonra Azərbaycanda Qərb əleyhinə təbliğat, anti-Qərb ritorikası dayandı. Fevralın sonunda Bakıda Avropa Komissiyasının vitse-prezidenti Federika Mogerininin iştirakı ilə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasının keçirilməsi və ardınca Avropa Komissiyasının TAP kəmərinin tikintisi barədə sazişi təsdiqləməsi münasibətlərin istiləşməsinə təsir göstərən mühüm hadisələrdəndir. Novruz öncəsi əfv sərəncamı ilə bir çox siyasi məhbusun azadlığa buraxılması, son olaraq vəkil İntiqam Əliyevlə bağlı müsbət qərar bu yeni mərhələnin tələblərindən irəli gələn addımlardır. Prezidentin Novruz tədbirində “Azərbaycanın başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilməsinə heç vaxt imkan verilməyəcək” bəyanatı bir daha göstərir ki, rəsmi Bakı balans siyasətini davam etdirmək niyyətindədir”.

**Ş.Cəfərli hesab edir ki, hələlik bu siyasət öz effektini itirməyib:** “Məncə, Qərb də Bakıdan Rusiya ilə münasibətlərdə konfrontasiyaya səbəb olacaq qəti addımlar atmağı tələb etmir. Qərb, ən azı bu mərhələdə, postsovet məkanında Rusiya ilə qarşı-qarşıya gələcəyi yeni bir cəbhənin yaranmasını arzulamır. Hətta birmənalı seçimi etmiş Gürcüstanı NATO-ya üzv qəbul etməkdə tələsmirlər. NATO-nun iyulda keçiriləcək Varşava sammitində Gürcüstana üzvlük üçün fəaliyyət planı verilməyəcək. Hazırda postsovet məkanında prioritet məsələ Ukraynadır”.

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# Karaciç cəzasını aldı, bəs Sərkisyan...

## Srebrenitsa soyqırımı kimi Xocalı soyqırımını törədənlər də cəzalandırılmalıdır

**Xəbər verdiyimiz kimi, Srebrenitsa soyqırımında günahlandırılan keçmiş serb lideri Radovan Karaciçə hökm oxunub. Haaqa Hərbi Tribunalı onu 11 ittihamdan 10-da təqsirkar bilib. O, soyqırım törətməklə bərabər, müharibə cinayətləri ilə də mühakimə edilib. Karaciç törətdiyi bütün cinayətlərə görə 40 il müddətinə azadlıqdan məhrum edilib. Bunların arasında 1995-ci il Srebrenitsa soyqırımı da var.**



Qeyd edək ki, Srebrenitsa soyqırımı Xocalı soyqırımı kimi dünya tarixində ən dəhşətli faciələrdən sayılır. 20 il sonra bu soyqırımı törədən şəxsin beynəlxalq məhkəmədə cəzasını alması Xocalı canilərinin də cəzalandırılması məsələsini gündəmə gətirir. Bəs görəsən, Azərbaycan hökuməti hazırda Ermənistan dövlətinin rəhbərliyində olan və əli Xocalı şəhidlərinin qanına bulaşmış şəxslərin həbsi üçün nə edə bilər? Biz bunun üçün gecikmiş sayılırıqmı?

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Aydın Mirzəzadə** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Srebrenitsa soyqırımının səbəbkarlarının cəzalandırılması həm hüquqi, həm də tarixi baxımdan çox mühüm bir presedentdir: "İlk növbədə bu bir mesajdır ki, tarixdə kütləvi qırğın törədənlər dövlətlərarası məhkəmə qarşısında durub cəzalarını alacaqlar. Xocalı soyqırımını törədənlər heç də Srebrenitsa soyqırımının təşkilatçılarından az cinayət törətməyiblər. Ən əsası isə Ermənistan cinayətkarları öz cinayətlərini açıq etiraf edirlər. Həm öz ölkələrində, həm də xarici mətbuat qarşısında bununla bağlı açıqlamalarını veriblər. Onların arasında indiki prezident Serj Sərkisyan, keçmiş prezident Robert Köçəryan, indiki müdafiə naziri Seyran Ohanyan və digərləri də var".

**Deputatın sözlərinə görə, Azərbaycan hökuməti bununla bağlı dəfələrlə beynəlxalq məhkəmələrə müraciət edib, lakin hələ də heç bir nəticə yoxdur:** "Çünki Avropanın müəyyən dairələri onların mühakimə edilməsində maraqlı deyillər. Srebrenitsa qətliamını törədənlərin mühakimə edilməsində isə Avropanın aparıcı siyasi dairələri birbaşa maraqlıdırlar. Çünki həmin dövrdə onların apardığı siyasi xətt Avropanın siyasi xəttinə qətiyyən uyğun gəlmirdi. Bu baxımdan həm hüquqi, həm siyasi cəhətdən Serbiyanın keçmiş rəhbərləri cəzalandırılır. Ermənistana gəldikdə isə bu gün Avropada bu ölkənin işğalçı siyasətini açıq bildirməkdən çəkinirlər. Xocalı soyqırımını Avropanın müəyyən dairələri soyqırım hesab etmir, sadəcə, hərbi əməliyyatlarda bir hadisə kimi qiymətləndirməyə çalışırlar. Ortada kifayət qədər faktlar olmasına baxmayaraq, Xocalı soyqırımının təşkilatçıları və iştirakçılarını cinayətkar kimi məhkəmə qarşısına çıxartmaqdan imtina edirlər. Bu reallıqlar və ikili standartlar məhkəmə prosesində də özünü göstərir. Ancaq bundan asılı olmayaraq, Azərbaycan hökuməti vaxtaşırı məhkəmə prosesi ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edir, faktları və sənədləri təqdim edir. Hesab edirik ki, gec-tez cinayətkarlar öz cəzalarına çatacaqlar".



**Hüquqşünas Müzəffər Baxış isə Xocalı soyqırımı cinayətkarlarının cəzalandırılmamasının günahını Azərbaycan hökumətində görür:** "Əlbəttə, Xocalı soyqırımında əli olan cinayətkarların da beynəlxalq məhkəmələrdə həbs olunması mümkündür. Lakin Azərbaycan hökuməti bildirir ki, biz beynəlxalq məhkəmələrin statusuna daxil deyilik. Ona görə də Xocalı ilə bağlı belə bir cinayət işi açılmayıb. Bu səbəbdən biz onların cəzalandırılmasına nail ola bilmirik. Lakin ən böyük günah Azərbaycan hakimiyyətindədir. Əgər hökumət Xocalı soyqırımını törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün lazımi sübutları təqdim etsə, onda həmin soyqırımı törədənlərin beynəlxalq məhkəmələr vasitəsilə cinayət məsuliyyətinə cəlb edilməsi mümkündür. Amma hakimiyyət bu sübutları təqdim etmir, əksinə, bəzi insanlar vasitəsilə cəmiyyətdə ictimai rəy yaradırlar ki, biz bu məsələnin beynəlxalq səviyyədə həllinə nail ola bilmərik".

❑ **Nərgiz LİFTİYEVA**

# Nəcməddin Sadıkov MDB SQ Qərargah Rəisləri Komitəsinin iclasında



**Azərbaycan müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov MDB Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin iclasında iştirak edir.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, Belarusun müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-mayor Oleq Belokonevin dəvəti ilə bu ölkədə səfərdə olan Azərbaycan müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov martın 28-də Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edir.

Əvvəlcə iclasın iştirakçıları Qələbə Meydanındakı abidənin önünə əklil qoyublar.

Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Ermənistan nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektləri müzakirə olunur.

Nümayəndə heyətlərinin rəhbərləri iclasda müdafiə sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparacaqlar.

Martın 30-dək davam edəcək səfər çərçivəsində general-polkovnik N.Sadıkovun bir sıra ikitərəfli görüşləri də nəzərdə tutulub.

Görüşlərdə ölkələr arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunacaq.

Bundan əlavə, Belarusun bir sıra müdafiə sənayesi müəssisələrinin ziyarəti planlaşdırılır.

# İki şəhər, iki terakt, iki reaksiya



**Xalid KAZIMLI**

**Bir daha sübut olundu ki, şərqlilərlə müqayisədə qərblilərin canı daha əzizdir, şirindir, toxunulmazdır.**

Bu acı gerçəklik Pakistanda, Lahorda, çoxu qadın və uşaq olan terakt qurbanlarının sayı açıqlananda və dünya ictimaiyyətinin buna reaksiyası bəlli olanda təsdiqləndi.

Məlum oldu ki, dünya birliyi bu qədər amansız, qəddar terror aktına görə heç də sarsılmayıb və o boyda terakt adi bir hadisə kimi qəbul edir.

Bundan əvvəl eyni durum Ankarada yaşanmışdı, Qızılay meydanında törədilən teraktda 37 nəfər həlak olanda dünya birliyi çox da həyəcanlanmamışdı.

Ancaq Brüsseldə törədilən terror aktlarına görə bütün Avropa əndişələndi, düz bir həftə bu, qoca qitənin bir nömrəli müzakirə mövzusu oldu.

Ondan bir il əvvəl Parisdə baş verən dəhşətli teraktlar zamanı da elə olmuşdu, hətta Avropa ölkələrinin liderləri bir araya gəlmiş, qol-qola girib həmrəylik nümayiş etdirmişdilər.

Amma Lahora gedən olmadı və olmayacaq. Uzağı, dünya ölkələrinin rəhbərlərindən başsağlığı mesajları gələcək. O da liderlərin hansısa köməkçisinin hazırladığı trafaret bir şey.

Beynəlxalq media qurumları belə öz xəbər bülletenlərində Lahordakı terrora ən çoxu yarım dəqiqə vaxt, yarım sütun yer ayırdılar. Onlar hələ də Brüssel terrorundan danışır, çəkir, yazırlar.

Niyə belədir? Bu qədər də ayrı-seçkilik olarmı?

Dərinliyə varsaq, xırdalayıb incələsək, bu davranışın səbəbləri çoxdur.

Əlbəttə, burada müsəlman-xristian söhbəti də var. Dünyanın hər yerində xristianlar müsəlmanlardan üstün sayılır, üstün tutulur.

Üzdə demirlər, deməzlər, amma əsas düşüncə budur ki, müsəlmanlar onsuz da sürətlə artırlar, terrorda, müharibədə qırılıb azalmalarının ziyanı yoxdur.

İkincisi, Qərb dünyası Şərq aləmindən gələn terror xəbərlərinə vərdiş eləyib. Məgər son bir ildə təkcə İraqda baş verən terror aktlarının dəqiq statistikasını iraqlıların özləri bilirmi?

Əmin ola bilərsiniz ki, bilmirlər. Bunu yalnız belə təxmin etmək olar, ilin günlərinin sayını götürürsən, hər gün bir, bəzi günlər iki terakt törədildiyini, az-az hallarda teraktsız günlər olduğunu nəzərə alırsan və bilirsən ki, bir ildə İraqda təxminən 400-ə yaxın terror aktı olub.

Avropa ictimaiyyəti bütün qan-qada dolu statistikanı necə yadda saxlasın, hansına görə başsağlığı versin?

Bir ara Pakistanda hər cümə günü terror aktı törədilirdi. Özü də məsciddə, camedə. Möminlər "bismillah" deyib namaza başlayanda, fanatik dinçilər "Allahu əkbər" deyə partladıcı qurğunu işə salırdılar: 30 ölü, 45 yaralı, 35 ölü, 60 yaralı və s.

Pakistanda ibadət evlərində törədilən terror aktları növbəlilik əsasında həyata keçirilirdi: bir dəfə şiələr sünni camesini partladırdı, növbəti dəfə sünnilər şiə məscidini.

Sonra Suriyada vətəndaş və məzhəb müharibəsi başladı, döyüşən qüvvələr öz militanlarını Suriyaya transfer etdilər və Pakistanda terror müharibəsi xeyli səngidi. Artıq cümə günləri Pakistandan "məsciddə partlayış törədilib" xəbərləri gəlmirdi.

Ancaq 30 ildən artıqdır bu ölkənin, eləcə də Əfqanıstanın, regionun başının bəlası olan bir terrorçu qüvvə var: Taliban. Onun terrorçu qüvvə olaraq təşkilatlanmasında Qərb dünyasının böyük rolu olub.

Taliban dollar xərcləyərək böyüyüb əjdaha olub. Nə qədər ki, SSRİ-yə qarşı döyüşürdü, "yaxşı terroçu"ydu, sovet qoşunları Əfqanıstandan çıxandan sonra Taliban nankor yetimlər kimi silahını onu saxlayanların üstünə çevirdi, "pis terrorçu" oldu.

Əfqanıstanda 7 il hakimiyyətdə olmuş Taliban ölkə xalqını daş dövrünə, quldarlıq quruluşuna qaytararaq bütün dünyaya nə cür bir siyasi qüvvə olduğunu göstərib. Lahordakı partlayışdan sonra artıq hər kəsə aydın oldu ki, bu terror təşkilatı üçün müqəddəs heç nə yoxdur və o, qarşısındakıların qoca, uşaq, qadın olmasına baxmayacaq.

Bəli, Şərqdə dini fanatizm yüz minlərlə insanın beynini çulğayıb və onları sağlam düşüncədən məhrum edib. İslahları mümkün görünmür. Əslində isə onlar da özləri kimi olmayanların islah olunacağına inanmırlar və bütün bəşəriyyəti terrorla islah etmək, ya qırıb qurtarmaq, ya da silah gücünə, ölüm qorxusuyla köləyə çevirmək istəyirlər.

Qərb dünyası bu həqiqətləri bilir, qorxur, Şərq ölkələrini dini fanatizmin qaynağı sayır. Bu, özünümüdafiə instinktidir. Artıq vəziyyət elə bir şəkil alıb ki, qərblilər müsəlman ölkələrinin hansının terrora dəstək verdiyini, hansının vermədiyini ayırd edə bilmirlər.

Bir də Avropa artıq belə bir qənaətə gəlməkdədir ki, Yaxın Şərq, Asiya hələ demokratiyadan çox-çox uzaqdır, onlara demokratiya sırımağın, insan haqlarına dair dərs keçməyin mənası yoxdur, layiq olduqları kimi də yaşamalıdırlar - qan-qada, səfalət, məhrumiyyət içində.

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# "Azərbaycana Rusiya tərəfdən də təhlükə var"

## Fərhad Mehdiyev: "Bizdə terror hadisəsini həyata keçirmək Türkiyədə olduğu kimi rahat deyil"

**Yaxın Şərqdə yaşanan və orada demək olar ki, adi hal kimi qarşılanan terror hadisələri artıq Avropanı da ağuşuna alıb. Terrordan kənar hesab edilən şəhərlərdə belə aktların baş verməsi isə digər dünya dövlətlərini də qorxuya salıb. Ekspertlərə görə, som hadisələr heç bir ölkənin bu cür təhlükələrdən sığortalanmadığını bir daha göstərir.**

Xüsusilə də son beş ayda qardaş Türkiyənin paytaxtı Ankarada ard-arda üç terror hadisəsinin baş verməsi Azərbaycan ictimaiyyətində də terrorla bağlı müəyyən xof yaratmış oldu. Martın 27-də Nəsimi rayonunda Bakı Metropoliteninin havalandırma sisteminin borusu ilə keçmək üçün dəmir barmaqlıqları kəsməyə çalışan Belarus vətəndaşı Sergey İlyevskinin saxlanması və onun üzərində çıxan əşyalar terror mövzusunu yenidən gündəmə gətirdi.

Onu da qeyd edək ki, Belarus vətəndaşı olan İlyevskinin üzərindən Tbilisi və İrəvan metro stansiyalarında və depolarında çəkdiyi şəkillər də tapılıb. O, həmçinin üzərində Bakı Metropoliteninin sxemini gəzdirib. Mətbuata verilən açıqlamalara görə, Belarusun Azərbaycandakı səfirliyinin əməkdaşlarının iştirakı ilə keçirilmiş ilkin araşdırma zamanı saxlanılan şəxs metropolitenin tunelinə daxil olaraq divarlara qraffiti üslubunda şəkillər çəkmək istədiyini deyib.

**Bəs Azərbaycan hər hansı terror qruplaşmasının hədəfində ola bilərmi? Məsələ ilə bağlı musavat.com-a danışan politoloq Fərhad Mehdiyev bildirdi ki, hazırkı məqamda Azərbaycanda terror həyata keçirmək istəyən qüvvələr ola bilər:** "Hesab edirəm ki, onlar bunu əsasən xarici ölkə səfirliklərinə qarşı həyata keçirməyi düşünərlər. İkinci hal kimi isə onlar cəmiyyətimizi hədəfə ala bilərlər. Azərbaycanda radikal sələfilərin, erməni terroristlərinin əhalimizə qarşı terror hadisəsi törətməsi ehtimalı istisna edilmir. Azərbaycanın təhlükəsizlik məsələsində üstün cəhəti budur ki, ölkənin ərazisi kiçikdir. Eyni zamanda təhlükəsizlik baxımından paytaxt ərazisində infrastruktur da yaxşı qurulub. Şəhərin bir çox yerlərində müşahidə kameraları quraşdırılıb. Yəni Azərbaycanda hər hansı terror hadisəsini həyata keçirmək, Türkiyədə olduğu kimi, rahat deyil. Hesab edirəm ki, terror ehtimalı hər zaman olsa da, təhlükəsizlik xidmətləri də öz işlərini normal səviyyədə görürlər. Bu isə terror cəhdlərinin qarşısının alınması ilə nəticələnir. Adi bir məqama diqqət edək ki, xaricdə mobil telefon danışıqlarının qeyd olunması Azərbaycandakı kimi deyil. Azərbaycanda bütün telefon danışıqları qeyd edilir. Danışıqlardan başqa hətta internet üzərindən yazışmalar da nəzarətdə saxlanılır ki, bütün bunların hamısı dolayısı ilə cəmiyyətin nəzarətdə saxlanılması deməkdir".



**Politoloq Azərbaycanın son zamanlar apardığı siyasətin - Türkiyə ilə yaxınlaşmasının, Qərbin azadlığını tələb etdiyi siyasi dustaqları azadlığa buraxmasının Rusiyanın qıcıqlanmasına səbəb ola biləcəyini də vurğuladı:** "Nəzərə alaq ki, Azərbaycan Dövlət Neft Akademiyasında baş verən terror hadisəsi məsələsi də tam araşdırılmadı. Həmin işdə Rusiyanın əlinin olub-olmaması sual olaraq cavablanmamış qaldı. Belə bir vəziyyətdə Azərbaycanın hazırkı siyasi gedişləri fonunda Rusiya tərəfindən də təhlükə real olaraq qalır. Bu baxımdan ölkəmizdə xüsusilə insanların daha çox toplandığı yerlər, metro stansiyaları ciddi şəkildə yoxlanılmalı, nəzarət artırılmalıdır. Şəhərdə, qeyd etdiyim kimi, kifayət qədər müşahidə kameraları var. Onların sayını artırmaq da olar. Ancaq əsas məsələ insanların daha çox toplandıqları yerlərdə nəzarəti gücləndirməkdir".

❑ Əli RAİS

# Avropaya 60 canlı bomba "hədiyyəsi" - Qərb nəşrindən şok iddia

## İtaliya qəzeti İŞİD-in məxfi xidmətinin intiharçı bombaları qitədə necə yerləşdirməsindən, "dövlət içində dövlət"dən yazır; Azərbaycanın götürəcəyi dərslər də var...

**Parisdəki terror olaylarının ardınca Brüsselə edilən son terror hücumları Avropa ölkələri toplumları ilə yanaşı, onların təhlükəsizlik sistemlərini də silkələdi, bu sistemlərdəki ciddi boşluqları üzə çıxardı. Həmin boşluqlar haqda Qərb ekspertləri və nəşrləri kifayət qədər sərt tənqidi şərhlər, təhlili məqalələr dərc etməkdədir.**

Eyni zamanda İŞİD qruplaşmasının terror fəaliyyətindəki "uğurları"nın başqa səbəbləri də göstərilir. Bu xüsusda edilən tənqidlər təbii ki, Azərbaycan üçün də mühüm önəm daşıyır.

***

"Paris və Brüsseldə terror aktları törədən terror qruplaşması tam məhv edilməyib: daha 20 "mürgüləyən" agent var". Musavat.com-un məlumatına görə, bu barədə İtaliyanın nüfuzlu "La Stampa" qəzeti özünün son sayında yazıb. Məqalə müəlliflərinə görə, Avropa torpaqlarında terror aktlarının təşkili ilə İŞİD-in xüsusi xidmətləri məşğul olur *(yeri gəlmişkən, bu yaxınlarda BBC İŞİD rəhbərliyində hər sahə üzrə yüksək peşəkarlığa malik şəxslərin təmsil olunduğunu yazmışdı -red.)*

"Bu strukturlar 1500 nəfəri əhatə edir və ən yaxşı insan və material resurslarına malikdir. Orada aparıcı rolu əcnəbilər oynayır. Bu, dövlət içində dövlətdir - hansı quruma ki, adi "silahlılar" nifrət edir. Saxlanılan dezertir cihadçılardan alınmış məlumatlara görə, 2015-ci ildə bu struktur Avropaya Əbdülhəmid Abaud başda olmaqla, 50 xarici terrorçu göndərib. Onların qarşısında Fransa, Belçika və Böyük Britaniyada terror yaymaq vəzifəsi qoyulub. Onlardan ən azı, 20-si hələ də sərbəst gəzir" - qəzet qeyd edir.



**Məqalədə daha sonra deyilir:** "Qrup yarım-muxtar və ya müstəqil özəklərdən ibarətdir. Onlardan hətta biri neytrallaşdırılsa, digərləri zərbə vurmağa davam edə bilərlər. Kamikadzelərə hansısa tərəddüd olacağı təqdirdə məsafədən düyməyə basmağa hazır "koordinatorlar" nəzarət edir. Onların hamısına isə "Xarici Təhlükəsizlik Departamenti" nəzarət edir. "Amn əl-Xaric - İŞİD-in dörd təhlükəsizlik strukturlarından ən mühümüdür".

**2015-ci ilin noyabrınadək departamentə Əburəhman əl-Tunisi rəhbərlik edib:** "O, Paris terror aktlarından sonra ABŞ-ın həyata keçirdiyi reyd zamanı öldürülüb. Əl-Tunisi informasilayaların ötürülməsi, adamların yerləşdirilməsi, maliyyə və silah məsələlərini koordinasiya edir, Qərbdəki terror aktlarının icrasına cavabdehlik daşıyırdı. Əcnəbi silahlılarının düşərgələrdə hazırlığı ilə isə 2015-ci ildə İŞİD sıralarından fərarilik eləmiş Hələbdən olan suriyalı Əbu Xalid məşğul olurdu. Jurnalist Maykl Veysin sözlərinə görə, sıravi döyüşçülər və xüsusi xidmətdən olanlar bir-birini sevmirlər: "Onların hazırlığı ilə məşğul olanda mənim hərbi dostlarım mənə deyirdilər ki, sən kafirlərlə əlaqədəsən».

**Fransada həbs olunan digər əcnəbi döyüşçü Nikol Moro deyib:** "Avropaya göndərilən hər bir silahlı 50 min avro alır". Məhz o, Abaudun ləqəbini açıqlayıb - Əbu Ömər. Müstəntiqlər bundan sonra başa düşdülər ki, məhz Əbu Ömər Avropa terror aktları törətməyi planlaşdırılan qrupa rəhbərlik edib. Abaud 60 xarici terrorçunun yerləşdirilməsinə şəxsən rəhbərlik edib. Cihadçılar onun rəhbərliyi altında Balkan marşrutu üzrə hərəkət ediblər. Əbu Ömər ödənc alan mücahidlərin hamısının adlarını bilən yeganə adam idi".

**İtalyan nəşri daha sonra yazır:** "Abaud Sen-Denidə keçirilən blits-əməliyyat zamanı öldürülüb. Ancaq struktura fəaliyyətini davam etdirir. Ona görə ki, terror özəkləri bir-birinə bağlı deyil. Məxfi xidmətlər məhz elə bu praktikadan istifadə edir: əgər kimsə düşmən əlinə keçirsə, o, heç kimi "ələ verə" bilmir, hətta işgəncə verilsə belə. Həmçinin, srağagün həbs edilən "jurnalist-terrorçu" Feysəl Şefu kimi "koordinatorlar" da var - onu silahlıları daşıyan taksi sürücüsü tanımışdı. Avropa kəşfiyyatındakı mənbələr deyir ki, bu "koordinatorlar" müstəqil hərəkət edirlər və özlərini partlatmamalıdırlar. Onlar hər şeyin plan üzrə getməsini müşahidə edir, ehtimal ki, silah da gəzdirirlər. Kamikadzelərin üstündəki bombaların ikinci pultunun onlarda olmasına dair şübhələr də var. Bu pultdan birinci pultda problem yaranarkən istifadə edilə biləcəyi güman olunur".

**Müəlliflərə görə, bundan əlavə, özəklər arasında əlaqələndiricilər də mövcuddur:** "Parisdəki silahlı qruplaşma ilə Brüsseldəki qruplaşma arasında əlaqələndirici əlcəzairli Mühəmməd Belkaid ola bilərdi. O, Saleh Abdesalamın tutulduğu reyd zamanı öldürülüb. "Dağınıq özəklər" nəzəriyyəsinin mahiyyəti bundan ibarətdir. Onun mövcudluğunu "Hizbullah"ın xüsusi dəstəsinin operativ əməkdaşı Əbu Saleh də təsdiqləyir".

"Əcnəbi silahlılar var ki, Avropa geri dönür. Həmçinin, silahlılar var ki, qaçqın kimi, kütləyə qarışaraq gəlirlər. Hər özək eyni zonada yaşayan, bir-birini tanımayan və eyni adama tabe olmayan 5 nəfərdən ibarətdir. Abaudun 60 nəfərlik qrupundan indi yarıdan azı qalıb. Onlar daim hazırlıq vəziyyətindədir: İŞİD-in bəyanatlarında məhz belə "məxfi özəklər" barədə danışılırdı" - sonda qeyd edir qəzet.

❑ Siyasət şöbəsi

# Azərbaycanın postneft dövrünə keçidi - iki fərqli rəy

**Ölkədə baş verən iki devalvasiya, üstəlik, aylardır ki, neftin qiymətinin dünya bazarında dibə enməsi fonunda Azərbaycanda da iqtisadi vəziyyət ürəkaçan deyil. Dövlət başçısı İlham Əliyev iqtisadi böhrana və neftin ucuzlaşmasına dəfələrlə diqqət çəkərək postneft dövrünə hazırlıq məsələlərini gündəmə gətirib. Neftin, neftdən gələn gəlirləri unutmağın vacibliyini önə çəkən dövlət başçısı, postneft dövrünə hazırlaşmağın vacibliyini vurğulayıb. Artıq 2016-cı ilin üç ayı bitir. Bu müddətdə hökumətin postneft dövrünə hər hansı hazırlığının olub-olmamasına ekspertlər musavat.com-a açıqlamalarında aydınlıq gətiriblər.**



**Natiq Cəfərli:** "Hökumətin ciddi iqtisadi planının olmaması narahatedicidir"



**Fikrət Yusifov:** "Əslində son illər ərzində bu istiqamətdə az işlər görülməyib"

**Ekspert Fikrət Yusifov musavat.com-a bildirib ki, Azərbaycanda postneft dövrünün başlandığına dair rəsmi bəyanat ilk dəfə ölkə başçısı tərəfindən keçən il səslənib:** "Əslində son illər ərzində bu istiqamətdə az işlər görülməyib. Əldə olunan nəticələri heç kim inkar edə bilməz. Ötən dövrdə qeyri-neft sektorunun ümumi daxili məhsuldakı (ÜDM) xüsusi çəkisinin artım templəri kifayət qədər yüksək olub. Lakin buna baxmayaraq, bu illər ərzində real sektordan ixracın istənilən səviyyədə artımı baş verməyib. Bunun əsas səbəbi artan istehsalın ilk növbədə daxili tələbatın ödənilməsinə yönəldilməsi olsa da, ixracın həcminin artırılmasına əngəl olan başqa amillər də az olmayıb".

**Ekspertin sözlərinə görə, dünya bazarlarında neftin qiymətlərinin heç kimin gözləmədiyi halda, kəskin şəkildə aşağı düşməsi neft ölkəsi olan Azərbaycanda real sektorun inkişafı istiqamətində ciddi və təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir:** "Daha doğrusu, bu işlərin əvvəlkindən sürətlə və kəskin addımlar atmaqla həyata keçirilməsi bir saylı vəzifəyə çevrildi. Korrupsiya və rüşvətxorluğa qarşı açıq müharibə elan edən prezident, azad sahibkarlığın qarşısındakı maneələrin tam aradan qaldırılmasını təmin edən qətiyyətli addımlara start verdi. İslahatların sürətlə aparıldığı son bir neçə ay ərzində iqtisadiyyatda ciddi nəticələrin əldə edilməsini gözləmək sadəlövlük olardı. Əslində bir neft ölkəsində iqtisadiyyatın neftdən asılılığına 5-6 il ərzində son qoymaq praktiki cəhətdən mümkün deyil və dünya təcrübəsində belə bir nümunə olmayıb. Neft faktoru üzərində möhkəmlənmiş iqtisadiyyatın diversifikasiyası üçün illər və bəlkə də on illiklər sərf olunmalıdır. Ancaq buna baxmayaraq, Azərbaycan hökumətinin real sektorun inkişafına yönəli addımlarının bu şəkildə davam edəcəyi təqdirdə, yaxın bir neçə il ərzində real sektorda ciddi irəliləyişlərin əldə olunacağı şübhə doğurmur. Proseslərin bir mərkəzdən idarə olunması isə aparılan islahatların nəticələrinin daha səmərəli olacağına əminlik yaradır. Ötən dövr ərzində struktur islahatları çərçivəsində atılan ciddi addımlar, azad sahibkarlığın inkişafına mane olan yoxlamaların dayandırılması, lisenziyaların verilməsi qaydalarının sadələşdirilməsi, lisenziya verilən fəaliyyət növlərinin sayının azaldılması, gömrükdə şəffaflığın artırılması, inhisarçılığın aradan qaldırılmasını təmin edən qərarların qəbul olunması, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da sərt şəkil alması və məmur ordusunda kimliyindən asılı olmayaraq heç kəsin toxunulmazlıq statusunun olmadığının cəmiyyətə bəyan edilməsi, son aylar ərzində görülən və bundan sonra görüləcək tədbirlər nəticəsində real sektorda ciddi irəliləyişlərin baş verəcəyinə inamı artırır".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, hökumətin ciddi bir planının olmaması narahatedicidir:** "Hökumətin ciddi plan və proqramının olması haqqında təəssüf ki, danışmaq mümkün deyil. Hələ bu yaxınlarda prezidentin sərəncamı ilə iqtisadi islahatların yol xəritəsini hazırlamaq üçün yeni bir qrup yaradılıb. O qrupun ancaq tərkibi bəllidir. Amma hansı təkliflərlə, hansı proqramlarla çıxış edəcək, bununla bağlı təəssüf ki, hansısa ipucları, kiçik məlumatlar belə yoxdur. Müzakirələr də təşkil olunmur. Ən azından, ictimai kanalda və yaxud dövlət televiziyasında bununla bağlı müzakirələr olsaydı, heç olmasa, biz də bilərdik ki, hansı istiqamətlər prioritetdir, hansı addımların atılması gözlənilir. Amma bu üç ayda qanunvericilikdə bəzi dəyişikliklər edildi. Məsələn, istehsalla və ixracla məşğul olmaq istəyən iş adamları üçün gömrük rusumlarının ləğv olunması ilə bağlı qərar verildi. Amma onun da bir "əmması" var ki, bu paketin alınması üçün mütləq İqtisadi İnkişaf Nazirliyindən xüsusi icazə almaq lazımdır. Bu icazələrin olması isə həm süründürməçiliyə yol açır, həm də neqativ halların olması üçün şərait yaradır. Azərbaycan praktikasında təəssüf ki, belədir. Gömrükdə bəzi dəyişikliklərin olduğu görünür. Rəsmiləşdirmədə daha tez və bütün gətirilən malların rəsmiləşdirilməsinin həyata keçirilməsi barədə qərarlar var. Bunun da həm müsbət, həm mənfi tərəfləri var. Müsbət tərəfləri odur ki, təbii ki, leqal şəkildə fəaliyyət göstərilsə, həm iqtisadiyyatda, həm gömrük rüsumlarının, həm vergilərin artmasında mühüm rol oynayacaq. Bunun mənfi tərəfləri ondan ibarətdir ki, bir çox gömrük rüsumları həddindən artıq yüksəkdir. Əvvəllər qeyri-qanuni yollarla ucuz qiymətə rəsmiləşdirilən mallar indi öz qiymətinə rəsmiləşdirilir. Gömrük rüsumlarının da baha olduğunu nəzərə alsaq, qiymətlərin əksinə, daha çox artmasına və iş adamlarına müəyyən problemlərin yaranmasına səbəb olub. Bu addımı atmamışdan öncə gömrük rüsumları xeyli dərəcədə azaldılmalı idi. Bizdə əslində gömrük rusumları 0-dan 15 faizə qədərdir. Amma nədənsə böyük əksəriyyət mal və xidmətlərə məhz 15 faiz tətbiq olunur. Aşağı rüsumlar çox az tətbiq olunur. Yəni bu sahədə müəyyən addımlar atıldı, amma davamlı olmasına ehtiyac var. Amma əsas olan odur ki, hökumətin ciddi bir yol xəritəsi, işi günbəgün sayılmış bir xəritəsi, planı yoxdur. Məsələn, iqtisadi vəziyyəti ağır olan ölkələrdə belə bir praktika olub. Çexiyanın, Pribaltikanın və Polşanın timsalında vaxtilə biz bunu görmüşük. Günlərə hesablanmış, məsələn, 300, 500 günlük proqramlar qəbul olunub və hər yüz gündən sonra hansı hədəflər qoyulubsa, onlar müzakirə edilib. Hədəflərin hansına çatmaq üçün hansı problemlər var, onları aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır kimi məsələlər müzakirə edilib. Hesabatlı və gündəlik iş rejimində, qrafiklə yol xəritəsi qəbul olunur. Bu, ölkələrin böhrandan çıxmasına ciddi dəstək olur. Azərbaycanda təəssüf ki, artıq iki ildir ki, böhranlı vəziyyət yaşanır. Ciddi problemlər var. Son bir ildə iki devalvasiyanı yaşadıq. Bank sektorunda ciddi sorunlar var. Pərakəndə ticarət çökmək üzrədir. Çünki vizual olaraq da görünür ki, şəhərin müxtəlif yerlərində ticarət obyektləri bağlanıb. Amma hökumətin hələ gündəlik, aylıq hesablanmış addımları yoxdur. Ən azından, biz bunu bilmirik ki, hansı addımlar atılacaq və bu addımların atılmasından sonra hansı keyfiyyət dəyişikliklərinə nail olunacaq. Təəssüf ki, bu, yoxdur. Bu da böyük problemdir".

❑ **Röya RƏFİYEVA**

---

# Dünya siyasətini ayıran xətt...



**Hüseynbala SƏLİMOV**

**Martın 24-də Haaqa məhkəməsi tarixi qərar qəbul etdi - Radovan Karacici düz 40 il azadlıqdan məhrum etdi. Yada salım ki, Karacic səkkiz min bosniyalı müsəlmanın qətliamında təqsirkar bilinir... Bəlkə də bu məsələnin üzərində dayanmamaq da olardı. Ona görə ki, keçmiş Yuqoslaviya ilə bağlı o qədər yazılıb, o qədər deyilib ki, təzə söz tapmaq olduqca çətindir.**

Amma bu məsələ indi heç bir vaxt olmadığı kimi aktualdır - bir tərəfdən dünyada islamofobiya baş alıb gedir, o biri tərəfdən də radikal dini cərəyanlar və terrorçu təşkilatlar biri-birinin ardınca yeni aktlar törətməkdə davam edirlər...

Qərəz, olduqca çətin durumdu. Birmənalı söz demək mümkünsüzdü. Bəli, ilk baxışda belə təəssürat yaranır ki, dünyada heç kim müsəlmanları sevmir. Hətta belə fikir yaranır ki, müsəlmanlara qarşı gizli sövdələşmə də var...

Amma belədirmi? Bəli, islamofobiya geniş vüsət alıb. Məsələn, təkcə ABŞ-da D.Trampın dedikləri yetər...

İş o yerə çatıb ki, hətta D.Trampın rəqibi T.Kruz da onun islamofob ritorikasını bölüşməyə və müsəlmanların əleyhinə danışmağa başlayıb. Niyə belə oldu?

Əgər D.Tramp qələbəni qələbə ardınca əldə etməsəydi, bəlkə də heç belə olmazdı. Amma Trampın rəqibləri baxıb görürlər ki, onun anti-islam çıxışları dəstək tapır və insanlar bunu eşitmək istəyirlər. Deməli, seçicilərin bir hissəsi elə həqiqətən də bu fikirləri bəyənir. Belə vəziyyət isə Trampın özündən də təhlükəli sindromdur - sən demə, ABŞ-da da anti-islam çıxışları üçün münbit zəmin var...

Bütün bu proseslərin sonu necə olacaq? Məhz belə vəziyyətdə Haaqa məhkəməsinin R.Karacic haqqında qərarına müraciət etdik. Bizə belə gəldi ki, vəziyyət o qədər də ümidsiz deyil - dünyada müsəlmanların da haqqını tanıyanlar var...

Din məsələsi siyasətdə həmişə önəmli olub. Təbii, son illərdə orta əsrlərdə olduğu kimi səlib yürüşləri yoxdur. Fəqət, indiki siyasi ritorikalar narahatlıq üçün xeyli əsas yaradır - getdikcə daha çox insan və getdikcə daha çox dövlət islama qarşı çıxır, dünya sanki dini tolerantlıqdan, multikulturalizmdən uzaqlaşır...

Hətta bəzən belə təsəvvür yaranır ki, bunlar çox məharətli dirijorun idarəsi ilə edilir. Fəqət, nəticələrlə tələsməyək. İslamı qara rəngdə görmək və islmofobiya son illərin terrorlarından da əvvəl başlayıb. Son vaxtlarda isə bu, daha çox vüsət tapıb. Nə etməli?

Bəlkə də bəsit səslənəcək, amma terror bütün təzahürləri ilə birlikdə pislənilməlidir. Buna söz yox...

Bu terror aktları sözün əsl mənasında nifrət doğurur, çünki klassik mənada başa düşülən müharibə belə terrorla müqayisədə daha humanist görünür...

Düzdür, islam terrorunun fenomen kimi yaranmasında Qərbin təqsiri hamıdan artıqdır.

Qərb bəzi islam ölkələrinə müdaxilə etdi və onları bərbad hala gətirib çıxardı, sonra da hər şeyi atıb "yuva"sına çəkildi...

Amma bir detal var. Bu yaxınlarda Rusiya telekanallarının birində bir verilişə baxırdım. Orada bir "dövlət rəsmisi" dedi: "Qərblilərə dəfələrlə dedik ki, gəlin Əfqanıstanda və digər ölkələrdə birgə hərəkət edək, oraları birgə bombalayaq, "xalıvari bombalama" həyata keçirək!..".

Həmin "dövlət adamı"nın dediyinə görə, Qərb, tutaq ki, Əfqanıstanda humanizm göstərdi, narkobiznesin kökünü kəsmədi ki, bu halda kəndlilərin dolanışığı tamam ağırlaşacaq!..

Doğrusu, çıxış məni çox qorxutdu, çünki həmin "dövlət adamı"nın dedikləri də böyük bir terror təsiri yaradırdı.

"Xalıvari bombalama" nə deməkdir? O deməkdir ki, bütöv yaşayış məskənləri özünün dinc sakinlərilə birlikdə yer üzündən silinir!..

Bəli, rusların məntiqi həmişəki kimi çox bəsitdi - bir nəfərin ölümü faciə, yüz adamın ölümü isə statistikadır...

Amma onlar bir şeyi yenə də yaddan çıxarır - çox şey Əfqanıstandan başladı. Ona görə də məsuliyyət həm də Rusiyanın üzərindədir. Təbii ki, problem var. Amma onun həlli heç də "xalıvari bombalama"da deyil, hərçənd ki, bu yolla Rusiya həqiqətən də Çeçenistanı tərkibində saxlaya bildi...

Müsəlman ölkələrində dövlətçiliyi bərqərar etmək, cəmiyyətləri dövlət çətiri altına və idarə olunan vəziyyətə gətirmək lazımdır...

İndilik isə təəssüf ki, dünya siyasətini ayıran xətti müəyyən etmək elə də asan deyil.

Bəzən heç bilinmir ki, Qərb də, eləcə də Rusiyanın özü də kimə qarşı vuruşur - bir ideya kimi islama qarşı, yoxsa müsəlman ölkələrindəki terrorçu təşkilatlara və yaxud da despotik rejimlərə qarşı?..

Yeni Müsavat
N 65 (6385) 29 mart 2016

# Dünya mediasının iki terrora ikili yanaşması...

## Niyə Belçikada baş verən terror faciə, Pakistanda baş verən terror isə sıradan hadisə kimi qarşılandı?

### **Elxan Şahinoğlu:** “Avropalılar düşünməsinlər ki, müharibə Türkiyədə, Suriyada gedirsə, onlar sakit və rəvan həyatlarına davam edə biləcəklər”

**Belçikada baş verən və 34 nəfərin ölümü, 300-dən çox insanın yaralanması ilə nəticələnən terror hadisəsi hələ də Qərb mediasının gündəmindən düşmür. Bütün Avropanı sarsıdan bu hadisə ilə bağlı məqalələr, təhlillər dünya mediasını işğal edib. Lakin bazar günü Pakistanda baş verən və 70 nəfərin ölümü ilə nəticələnən terror aktı nədənsə dünya mediasını bir o qədər silkələyə bilmədi. Faciəsinin miqyasının və insan tələfatının bir öncəkindən iki dəfə çox olmasına baxmayaraq, Qərb mediası qısa bir xəbərlə bu hadisənin üzərindən keçdi.**

Bir çox ölkələrin mediası da Pakistanda Taliban terror təşkilatı tərəfindən törədilmiş hadisəyə sadəcə bir neçə informasiya ilə reaksiya verdilər. Bəs görəsən, Avropada baş verən hadisələrin Yaxın Şərqdə baş verənlərdən daha böyük əks-səda doğurmasının səbəbi nədir? Qərbin nüfuzlu media orqanlarının onlara yaxında baş verən hadisələri faciə, uzaqda baş verənləri isə sıradan bir hadisə kimi təqdim etməsi hansı yanaşmanın nəticəsidir? Bu ikili standartların səbəbi nədir? Burada Avropada mövcud olan islamofobiyanın rolu varmı?

**Media eksperti Zeynal Məmmədli “Yeni Müsavat”a açıqlamasında bu məsələdə birmənalı fikir bildirməyin, yalnız Avropanı ittiham etməyin doğru olmadığını bildirdi:** “Burada ilk növbədə onu nəzərə almaq lazımdır ki, Qərb mətbuatının özünün oxucu auditoriyası var. Onlar üçün özlərinin yaxın ətrafında, Avropada baş verən hadisələr daha önəmlidir. Onlar üçün hadisə öz ölkələrində baş verirsə, daha təsirli olur, cəmiyyət daha böyük reaksiya verir. Bu baxımdan Belçikadan baş verən terrora reaksiya ilə Pakistanda baş verən terrora münasibət eyni olmayacaqdı. Cəmiyyətlərin özlərinin də xüsusiyyətlərindən çox şey asılıdır. Televiziyalar da auditoriyanın maraqlarını nəzərə alır ki, bu hansı cəmiyyətdir, onlar səs verir, vergi ödəyir, büdcəni formalaşdırır, hökumətə təsir edir. Hökumət də istəsə də -istəməsə də açıq olmağa məcburdur. Pakistan isə avtoritar rejimlə idarə olunur, ictimai rəyə önəm verən yoxdur. Bu amili də biz nəzərə almalıyıq”.

**Z.Məmmədli bu mənada əksər nüfuzlu media orqanlarının Qərbin əlində cəmləşməsinin də rolu olduğunu vurğuladı:** “Bütövlükdə informasiyanın istiqaməti Qərbdən Şərqə gəlir. Dünyanın ən böyük informasiya sistemləri Qərbə məxsusdur. Biz bunun adını biganəlik də qoysaq, ədalətsizlik də qoysaq, fakt belədir. Biz ilk növbədə özümüzü günahlandırmalıyıq ki, informasiyanı çatdırmaq üçün hansı vasitələrdən yararlanırıq. Nə üçün bizim nüfuzlu mediamız yoxdur, nə üçün bizim media orqanlarımız Qərb mediasının xəbər qaynağına çevrilə bilmir. Buradan incimək, küsmək kimi nəticə çıxarmaq vəziyyəti dəyişməyəcək. Kim güclüdürsə, onun maraqları da daha güclü olur.





### **Zeynal Məmmədli:** “Səbəb odur ki, ən böyük informasiya sistemləri Qərbə məxsusdur”

İkinci bir məqam odur ki, bizim özümüzdə bu ölümlərə münasibət necə olur. Qərbdəki kimi münasibət olurmu? Əlbəttə ki, daha sakit və laqeyd olur. Bunu dəyişmək lazımdır. Bizdə bu münasibət dəyişsə, Qərbin də münasibəti dəyişər. Biz media orqanlarımızın beynəlxalq nüfuzunu artırmalıyıq ki, Qərb də belə hadisələrdə bizə istinad etsin.

Düzdür, bu tendensiyaya baxıb elə bir fakt da çıxarmaq olar ki, burada islamofobiya var. Lakin gəlin belə bir rəy verməyə tələsməyək. İslamofobiya üçün əsas varmı, məsələnin o tərəfinə diqqət yönəltməliyik. Bu dəqiqə bizim kimisə tənqid etməyimizdən çox, özümüzə tənqidi yanaşmağımız və özümüzü dəyişməyimiz daha doğru yoldur. Bütün o biri həqiqətləri də danmamaq şərtilə...”

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Azərbaycan bu hadisəyə gərəkli reaksiyanı ilk anda verdi:** “Pakistanda baş verən partlayışa da biz Avropadan adekvat reaksiya görmədik. Türkiyədə PKK terrorçularının törətdiyi partlayış nəticəsində 37 dinc sakin həlak oldu. Brüsseldə də partlayış baş verdi, orada 34 insan həlak oldu. Hər ikisi dəhşətli və ağır hadisədir. Ancaq gəlin baxaq, Avropa hər iki partlayışa eyni reaksiya verdimi? Belçikadakı partlayış faciə kimi dəyərləndirildi, saysız məqalələr yazıldı. Ancaq Ankarada baş verən partlayış görməzlikdən gəlindi. Hətta Qərb terrorçular arasında da fərq qoyur. PKK törədibsə, Avropada bu terror təşkilatının adını çəkən yoxdur. Əksinə, PKK Ankarada terror törədib, iki gün sonra Belçikanın paytaxtında çadır salıb etiraz nümayişi keçirir. Belçika hökuməti də buna icazə verdi. Ərdoğanın həmin anda verdiyi proqnoz da düz çıxdı. O demişdi ki, bir gün bu terror sizi də vuracaq. Sonra eyni miqyasda partlayış Belçikanın paytaxtında da oldu. Avropanın münasibəti isə birmənalı deyil”.

**Politoloqun fikrincə, Qərbdə belə bir düşüncə var ki, sanki Ankarada, Pakistanda, İranda, Türkiyədə baş verənlər terror deyil, yalnız Avropada nə baş verirsə, böyük faciədir, bundan çıxış yolları axtarılmalıdır, nəsə bir siyasət ortaya qoyulmalıdır:** “Ancaq Avropada anlamırlar ki, əslində bu terror hamını vurur, hər kəsi hədəfə ala bilər. Buna qarşı birgə mübarizə olmalıdır, ikili standartlardan əl çəkməlidirlər. Mənim terrorçum yaxşıdır, sənin terrorçun pisdir yanaşması olmamalıdır”.

**Ekspert Avropada baş verən hadisələrin kəskin reaksiya doğurmasının obyektiv səbəblərinə də toxundu. Qeyd etdi ki, Yaxın Şərq ölkələri ilə bağlı terror xəbərləri adi hal alsa da, təhlükəsizliyi və rahatlığı ilə seçilən Avropada bu daha çox dəhşət doğurur:** “Düzdür, burada obyektiv səbəblər də var ki, niyə belə yanaşmalar olur. Türkiyə, Pakistan və Yaxın Şərqdə illərdir ki, terrorçularla savaş gedir. Ona görə də sanki bu ölkələrdə partlayışlar, ölüm-itim dünya mediası üçün adiləşib. Ancaq sakit, rəvan və yüksək səviyyədə həyata öyrəşən avropalı bu cür savaşlara öyrəşməyib və belə bir partlayışın baş verməsi onlar üçün böyük bir hadisədir. Ancaq bir məsələ də var ki, Avropada təhlükəsizlik məsələlərinə çox barmaqarası yaxınlaşırlar. Bu baxımdan Avropa terrorçuların qarşısında sanki aciz qalıb. Ona görə də 28 dövlətin bir araya gəlib hansısa ortaq siyasət ortaya qoymaları da problemdir. Amma bunu ortaya qoymayınca, fəaliyyətlərini genişləndirməyincə, bütün terrorçu təşkilatlara eyni gözlə baxmayınca gələcəkdə Avropanı daha böyük çətinliklər gözləyir. Düşünməsinlər ki, müharibə Türkiyədə, Suriyada gedirsə, onlar sakit və rəvan həyatlarına davam edə biləcəklər. Qərb ətrafında baş verənlərə də həssas yanaşmalı və ciddi nəticələr çıxarmalıdır”.

❑ **Nərgiz LİFTİYEVA**

# Ərdoğanın diplomatlara qəzəblənməsinin səbəbi

## “Onun diqqətdə saxladığı məhkəmə işinə diplomatların qatılmasını Türkiyə prezidenti birmənalı qəbul etməyib”



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Dünya Türk Sahibkarları Qurultayındakı çıxışı zamanı “Cümhuriyet” qəzetinin baş redaktoru Can Dündar və qəzetin Ankara nümayəndəsi Erdəm Gülün məhkəməsinə gedən konsullara xəbərdarlıq etdi. Prezident konsullara xitabən bildirib: “Siz kimsiz? Nə işiniz var orada? Diplomatiyanın da bir ədəbi var. Bura sənin ölkən deyil, bura Türkiyədir. Sən konsulluq binası və ya sərhədləri içərisində hərəkət edə bilərsən. Digər şeylər üçün icazə almalısan”.**

Ərdoğanın bu fikri politoloqlar tərəfindən birmənalı qarşılanmayıb. Ekspertlərin bir qismi Ərdoğanın haqlı olduğunu bildirsələr də, digərləri mövzuya fərqli yöndən yanaşıblar.

Məsələ ilə bağlı musavat.com-a danışan **Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə** bildirib ki, beynəlxalq qanunlara görə, konsul bu kimi məsələlərlə bağlı kimsədən icazə almaq məcburiyyətində deyil: “Kim deyir ki, konsul kimdənsə icazə almalıdır? Belə bir şey yoxdur. Ərdoğanın fikirləri doğru deyil. Konsul istənilən məhkəməyə gedib, onu izləyə bilər. Hətta istənilən turist bunu edə bilər. Beynəlxalq hüquqda, diplomatik statuslarda hər hansı bu cür icazə-filan yoxdur”.

**Politoloq Elxan Şahinoğlu musavat.com-a bildirib ki, ilk olaraq məhkəməsi olan jurnalistlərin nə üçün həbs edildiklərinə baxmaq lazımdır:** “Ərdoğan iddia edirdi ki, həmin jurnalistlərin yazdıqları məqalə əsasında dövlət sirri açılıb. Ancaq məsələ burasındadır əməliyyatlar o qədər gizli aparılmalı idi ki, bundan jurnalistlərin xəbərləri olmasın. Dünyanın istənilən nöqtəsində jurnalistin yazısına görə həbs edilməsi qəbuledilməz sayılır. Konstitusiya Məhkəməsi də onları faktiki olaraq azadlığa buraxdı. Lakin məhkəmənin bu cür addımını Ərdoğan özünə qarşı qəbul etdi və sərt reaksiya verdi. İndi bu baxımdan onların növbəti məhkəməsi də Ərdoğanın diqqət mərkəzindədir. Konsulların da məhkəməni ziyarət etməsi Ərdoğanda narahatlıq doğurub. Bəlkə də həmin konsullar bir başqa məhkəmə işində iştirak etsəydilər, Ərdoğan buna diqqət yetirməzdi. Ancaq diqqətdə saxladığı məhkəməyə konsulların gəlişini birmənalı qəbul etməyib, beynəlxalq hüquqa zidd adlandırıb. Beynəlxalq hüquqa görə səfir və konsulların ölkə daxilində fəaliyyət azadlıqları var. Doğrudur, onlar paytaxtdan hər hansı bir məsafəyə getdikləri zaman bunun üçün xüsusi icazə almalı idilər. Məhkəməyə qatılmaq üçün isə icazəyə gərək yoxdur. Azərbaycanda da məhkəmə işlərinə səfirlər, onların müşavirləri qatılırlar. Bu elə böyük problemə səbəb olmur. Baxmayaraq ki, biz bəzi hallarda ölkədəki vəziyyətdən şikayətlənirik, demokratiya ilə bağlı ciddi suallarımız olur”.

**Politoloq bildirib ki, Türkiyədəki hazırkı vəziyyət bir qədər fərqlidir:**

“Həssas yanaşma var, terrorla mübarizə gedir. Ona görə də bu cür addımlar Türkiyə hakimiyyətində çox böyük qıcıq və narahatlıq yaradır. Ərdoğanın açıqlaması da məhz elə bu faktorlarla bağlıdır. Ərdoğan ondan da narahatdır ki, bu kimi səfirlər, diplomatlar Türkiyədə terrorun tüğyan etməsi ilə bağlı açıqlama vermədikləri, bu məsələni diqqət mərkəzində saxlamadıqları halda daxili proseslərə aid işlərdə fəallıq nümayiş etdirirlər. Bu da Ərdoğanın timsalında ikili standartlar kimi dəyərləndirilir. Onun yanaşmasında da həqiqət var. Diqqət etsək görərik ki, hazırda hər kəs Belçikadakı partlayışdan danışır. Halbuki Ankaradakı partlayış da dəhşətli idi. Orada da 37 mülki vətəndaş həlak oldu. Avropada bir diplomat bununla bağlı açıqlama verib, PKK terrorunu lənətlədimi?! Bu da ikili standartlardır”.

**Politoloq söyləyib ki, diplomatların məhkəməyə qatılmalarının iki səbəbi ola bilər:** “Birincisi, bu həqiqətən də Ərdoğana mesajdır ki, ona alternativ qüvvələrə Avropada müəyyən qədər dəstək var. İkincisi isə onların məhkəmə işləri ilə bağlı həsabat hazırlamaları ola bilər”.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

**Azərbaycanda da iri neft aktivlərinə malik olan inquş milyarder Mixail Qutseriyevin martın 26-da Moskvada oğluna dəbdəbəli toy etməsi ölkəmizin mediasında da ciddi maraqla qarşılanıb. Telman İsmayılova məxsus "Safisa" şadlıq sarayında keçirilmiş dəbdəbəli toy mərasimində Hollivud ulduzlarından Beyonse, Elton Con, Cenifer Lopes, Stinq, Enrike İqlesias çıxış ediblər. Məlumata görə, ən çox qonorar alan Stinq olub. Qutseriyev ona 1.5 milyon dollar ödəyib. Cenifer Lopes 1 milyon, İqlesias 500 min dollar alıb. Qutseriyevin oğlu Səid və yaxın dostları, habelə oliqarxın ailəsi toy mərasiminin ardınca Londona yola düşüblər. Çünki toyun davamı Qutseriyevin vaxtilə Rusiya hakimiyyətinin qəzəbindən qaçaraq sığındığı Britaniya paytaxtında olacaq....**

# Azərbaycanda da biznesi olan Qutseriyev kimdir?

## "Mən həyatımda üç dəfə hər şeyi itirmişəm və yenidən başlamışam"

### Yükdaşıyandan neft şirkəti prezidenti...

Mixail Qutseriyev 1958-ci ildə martın 9-da Qazaxıstanda anadan olub. Əmək fəaliyyətinə Qroznıda müəssisələrin birində yükdaşıyan kimi başlayıb. Cambul Texnologiya İnstitutunda axşam şöbəsində, 1995-ci ildə Rusiya hökuməti yanında Maliyyə Akademiyasında, Rusiya Dövlət Neft və Qaz Universitetində təhsil alıb. Plexanov adına İqtisadiyyat Akademiyasında doktoranturada "Azad iqtisadi zona" mövzusunda müdafiə edərək alimlik dərəcəsi alıb.

1992-ci ildə Cövhər Dudayevin hakimiyyətə gəlməsindən sonra bütün biznesini Çeçenistanda qoyub Moskvaya gəlib. Burada "BİN" adlı maliyyə kompaniyası yaradıb. 1995-ci ildə LDPR-in siyahısından Dövlət Dumasına deputat seçilib. 1999-cu ildə Jirinovskinin partiyasından çıxıb və müstəqil namizəd kimi Dumaya seçilib. 2000-ci ildə "Slavneft"in prezidenti seçilib və mandatından imtina edib.

2002-ci ildə "Russneft" kompaniyasını yaradıb və rəhbərlik edib. Qutseriyev bir neçə ilin ərzində sürətlə varlanaraq ölkənin ən zəngin adamlarından birinə çevrilə bilib. Onun şirkəti "Russneft" də sürətlə böyüməkdə idi...

2007-ci ilin iyununda Qutseriyev dövlət tərəfindən ciddi təzyiqlərə məruz qaldığından "Russneft"i Kremlə royal olan biznesmen Oleq Deripaskaya satır və "elmlə məşğul olmaq" istədiyini deyir. Deripaska kompaniyanı üç milyard dollara alır. Hələ o zaman deyilirdi ki, inquş biznesmen Kremlin qəzəbinə İnquşetiya müxalifətini maliyyələşdirdiyi üçün gəlib.

2007-ci ilin avqustunda Moskvanın Tver Rayon Məhkəməsi maliyyə fırıldaqlarında ittiham olunan Qutseriyevin qiyabi həbsinə qərar verir. Qutseriyev yəhudi iş adamı Mixail Xodorkovski kimi Sibir həbsxanalarına düşməmək üçün vaxtında Rusiyadan qaçdı. Rusiyadan qaçmağa məcbur olan biznesmen Belarusdakı dostlarının köməyindən istifadə edərək Minskdən özəl təyyarə ilə Londona gedir.





### Çingizxanın ölümü...

Elə həmin ərəfədə Qutseriyevin 21 yaşlı oğlu, Londonda təhsil alan və Rusiyaya qayıdaraq atasının biznes strukturlarına rəhbərlik etməyə başlayan Çingizxan Moskvada "Ferrari" avtomobili ilə qəzaya düşür. Qəzadan sonra o, hadisə yerini özü tərk edir, evlərinə qayıdır və bir neçə saatdan sonra sinəsində bərk ağrılar başlayır. Həkimə aparılsa da, onun həyatını xilas etmək mümkün olmur. Qutseriyev oğlu ilə vidalaşmaq üçün Moskvaya gələ bilmir,

Məlumatlara görə, Qutseriyevi Bakıda qoruyan iş adamı İsgəndər Xəlilov olub. Məhz Isgəndər Xəlilovun dəstəyi nəticəsində Qutseriyev bir müddət Bakıda təhlükəsiz şəraitdə qala bilib.

**İllər sonra Qutseriyev Çingizxanın həlak olmasını belə xatırlayıb:** "Mənim keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Mən Londondayam, oğlum isə Moskvada ölüb. Və mən onun dəfninə gələ bilmirəm, çünki axtarışdayam. Bu günə qədər də özümü qınayıram ki, niyə Çingizxanı özümlə Londona aparmadım. Mən onu Moskvada qoydum ki, Rusi-

## Biznesmeni Bakıda qoruyan İsgəndər Xəlilov olub





"Bəs Çingizxanın ölümü doğrudanmı bədbəxt hadisə idi" sualına Qutseriyev "bəli, bu, həqiqətən bədbəxt hadisə idi. O, avtomobil qəzasında həlak oldu. Bunu Moskvada və Bakıda aparılan ekspertiza da təsdiqləmişdi" - deyə cavab verib.

### Bakıya gizli gəlirmiş...

Qutseriyev yaşadığı şokdan çıxandan sonra biznes fəaliyyətinə başlayıb, Britaniyada "GCM Global" adlı böyük şirkət təsis edib. O, sonralar bildirib ki, Londonda gizləndiyi və beynəlxalq axtarışda olduğu vaxtlarda Azərbaycanda da biznesini genişlən-

biznesmen Azərbaycan hakimiyyətinin yüksək dairələrində malik olduğu əlaqələrdən istifadə edərək oğlunun cəsədinin xüsusi təyyarə ilə Bakıya gətirilməsinə nail olur. Daha sonra özü də Bakıya gəlir və burada məxfi şəraitdə mərasim təşkil olunur. Daha sonra Çingizxanın cəsədi dəfn olunmaq üçün Qutseriyevin vətəni olan İnquşetiyaya aparılır.

yada hakimlər və məmurlar tərəfindən törədilən eybəcərlikləri öz gözləri ilə görsün. Onu prokurorluğun istintaq komitəsinə dindirməyə çağırdılar. Hesab edirdim ki, bunları görəndən sonra gələcəyi üçün nəticələr çıxaracaq. Məndən sonra Rusiyada qalıb işləməsi üçün onu bu yolla hazırlamaq istəyirdim, istəyirdim bütün çətinlikləri görsün və hazır olsun".

dirib, yeni neft layihələrinə qoşulub və dəfələrlə Türkiyə üzərindən Bakıya gedib-gəlib. Daha maraqlı bir fakt: biznesmen Londonda 400-ə yaxın şeir yazıb, onları iki kitabda toplayıb dərc etdirib.

### Yenidən Moskvaya

**2010-cu ildə Rusiya Daxili İşlər Nazirliyi yanında İstintaq Komitəsi Qutseriyev haqqında həbs-qətimkan tədbirini ləğv edib. 3 ilə yaxın axtarışda olduqdan sonra Rusiya hakimiyyəti ilə anlaşan və yenidən bu ölkəyə qayıdaraq biznesə başlayan Qutseriyev Putinə və Medvedyevə minnətdarlıq edib:** "Onlar işə qarışmasaydı, mənim Rusiyaya qayıtmağım heç vaxt mümkün olmazdı".

**İş adamı yenidən təqiblərlə üzləşə biləcəyi barədə deyib ki, artıq heç nədən qorxusu qalmayıb:** "Mən həyatımda üç dəfə hər şeyi itirmişəm və yenidən başlamışam. Rusiyasız yaşamaq mənimçün çox çətin olardı. Qayıtdım, oğlumun, qardaşımın, qohumlarımın dəfn olunduğu qəbiristanlığa baş çəkdim. Mənim xaricdə sakitcə, rahat yaşamaq üçün kifayət qədər pulum var. Ancaq atlar, inəklər də yedizdirəndə yaşayır. Biz isə insanıq. Əgər fikirləşsək ki, milyardlar qazanaq və Rusiyadan gedək, o zaman Rusiya kimə qalacaq?"

**Məlum olub ki, Qutseriyevin Rusiyaya qayıtmasında AFK "Sistema" şirkətinin sahiblərindən olan Vladimir Yevtuşenkonun və "Sberbank"ın o zamankı rəhbəri German Qrefin rolu olub. Biznesmen deyib ki, onlar cinayət işlərinə xitam verilməsi üçün vasitəçilik ediblər:** ""Sberbank" "Russneft"in əsas kreditorlarından olduğu üçün Qrefin mövqeyi həlledici oldu. Mən ona minnətdaram".

**Qutseriyev Rusiyaya qayıdıb "Russneft"i Deripaskadan geri alandan sonra dərhal səhmlərinin bir hissəsini "Sberbank"a və "Sistema"ya satıb. O deyib ki, səhmlərin bir hissəsinin həmin şirkətlərə verilməsi Rusiyaya qayıtmağı təmin etməyin əvəzində qoyulan şərt deyildi:** "Onlar mənə belə şərt qoysaydılar, heç vaxt razılaşmazdım. Mən özüm qayıdandan sonra səhmləri onlara təklif etdim".

### Yenə zirvədə

"Forbes" jurnalı 2006-cı ilin yanvarında Rusiyanın kommersiya təyinatlı daşınmaz əmlak biznesindən ən çox gəlir əldə edən 30 biznesmenin növbəti illik reytinqini yayıb. İnquş əsilli milyarder və qohumları Sait-Salam Qutseriyev, Mixail Şişxanov isə daşınmaz əmlak icarəsi biznesindən 615 milyon dollar gəlir əldə ediblər.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# Yediyimiz düyüdəki "düyünlər"

## Bakı bazarlarında alıcıları necə aldadılır

**Bazarlardan aldığımız və süfrəyə plov olaraq təqdim etdiyimiz düyülərin bir qismi plastik düyü imiş. Son günlər bu haqda məlumatlar və şayiələr mətbuatın gündəmindən düşmür. Deyilənlərə görə, süni düyülər əsasən nişastadan və undan hazırlanır, tərkibinə sintetik materiallar və plastik maddələr də qatılır. Bu düyülər daha şəffaf olur və bişərkən dənəvər qalır, əzilib yapışmır, həlimli olmur. İddialara görə, süni düyülər Azərbaycan bazarlarına da Hindistan, Pakistan düyüsü adı ilə ayaq açıb. Əslində isə bu düyülər Çindən gətirilir.**




"Yeni Müsavat"ın müxbiri paytaxtın bir neçə mağazasına baş çəkib. Kənd təsərrüfatı məhsullarının satıldığı bazarlarda düyülər açıq çəki ilə satılır. Satıcılar isə bu haqda eşitsələr də, onlarda belə məhsulun olmadığını bildirirlər. Onların sözlərinə görə, bu haqda məlumatı da ilk dəfə mediadan eşidiblər, lakin özləri də bu düyülərin fərqini bilmirlər.

Marketlərdə isə müxtəlif düyü növləri "Tamaşa", "Sultan Basmati", "Məhəbbət", "Şahənşah" və sair alıcılara təklif olunur. Satıcılar bu düyülərin saxta olacağını istisna edirlər.

Alıcılar isə deyir ki, onlar artıq qəbul etdikləri qidaların heç birinin təbiiliyinə inanmırlar. Bu baxımdan düyülərin də saxta olması ehtimalı təəccüblü deyil. Alıcılardan yerli düyülərə üstünlük verdiklərini deyənlər də az olmadı.

Qeyd edək ki, 8-ci kilometr bazarında müxtəlif növ düyülərin kiloqramı 2.5 manata satılır, marketlərdə isə 1 kiloluq düyü qutuları 3.5 manatadır. Bazarda yerli düyülərdən ən çox Astara düyüsünə təsadüf olunur, bu düyü 5 manata təklif olunur. Satıcılar deyir ki, yerli məhsul baha olduğu üçün alıcılar digərlərinə üstünlük verirlər.

Ekspertlər isə süni düyülərin təbii düyü adı ilə satışa çıxarılmasını alıcıların aldadılması kimi dəyərləndirsələr də, bunun sağlamlıq üçün təhlükəli olmadığını bildirdilər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında bu durumu istehlakçı hüquqlarının pozulması kimi qiymətləndirdi:** "Süni düyünün olmasında təəccüblü heç nə yoxdur. Süni kürü də var, Azərbaycanda da istehsal olunur. Onun balıq kürüsü ilə heç bir əlaqəsi yoxdur. Müəyyən standartlar və texniki şərtlər əsasında istehsal olunur və satılır. Bu cür də süni düyü var. O da xüsusi texnologiya ilə istehsal olunur. Bu, mürəkkəb bir şey deyil, sadəcə, nişastadan, qırılmış düyülərin una çevrilib qatılmasından və digər qida maddələrindən hazırlanan süni düyü istehsalı mövcuddur. Lakin o düyülərin içində plastik olması, kimyəvi maddələrin olması istisna olunur. Belə bir şey mövcud deyil. Bu düyülər müxtəlif qida üçün yararlı olan maddələrdən hazırlanır və insan həyatı üçün təhlükəli deyil. Azərbaycanda da belə düyülərin olması istisna olunmur. Lakin istehlakçıların aldanmaması üçün gərək həmin düyünü satanlar onun süni düyü olması haqqında alıcıya məlumat versinlər. Əks halda, bu, istehlakçıların aldadılması kimi başa düşülür. Əgər müvafiq dövlət orqanları bu işə müdaxilə edərsə, 1500 manatdan 2000 manata qədər cərimə gözləyir. Bu cür düyülər bişərkən dənəvər dayanması ilə, öz şəffaf görkəmi ilə, yaxşı düyü kimi özünü imitasiya etməsi ilə xarakterizə olunur".

**Ekspert bildirdi ki, Azərbaycanda bu düyünün satışda olması istisna olmasa da, heç bir düyünün üzərində süni düyü olması haqqında məlumata rast gəlinməyib:** "Onların fərqinə gəlincə, ən yaxşı halda bu düyüləri cücərtməklə bilmək olar. Təbii düyü cücərir, süni düyü isə cücərmir. Bunu adi gözlə öyrənmək mümkün deyil, yalnız laborator yolla bunu müəyyən etmək olar. Necə ki, süni kürünü təbiidən ayırmaq çox çətindir. Hətta süni kürü öz dənəvərliyi və şəffaf görkəmi ilə təbii kürüdən yaxşı görünür. Süni düyünü də ilk baxışda fərqləndirməyin yolu yoxdur".

**Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, əhali yerli düyü növlərinə üstünlük versə daha yaxşı olar:** "Hindistan, Pakistan və İrandan gələn düyü hələlik təbii düyüdür. Alıcılar sadəcə o biri düyüləri almasınlar. Çindən gələn düyülərə üstünlük verməsinlər. Düzdür, düyü plastikdən ola bilməz. Bu yanlış informasiyadır. Süni düyü də təbii materiallardan hazırlanır, plastik deyil. Ancaq məsləhət görərdim ki, insanlar təbii düyüyə üstünlük versinlər.

İndi artıq yumurtanı da süni şəkildə hazırlayırlar. Amma siz yumurta yemək istəyirsiniz, yoxsa jelatin? Bunun fərqi var. Ona görə də normal düyü seçib almaq lazımdır. Azərbaycanda da düyü alarkən diqqətli olmaq lazımdır, onların arasında süni düyü də ola bilər".




**Baş kulinarın fikrincə, indi yerli biznesmenlər o həddə çatıblar ki, harada ucuz məhsul varsa, keyfiyyətinə baxmadan alıb gətirir, əhaliyə təklif edirlər:** "Mən hətta qorxuram ki, Çindən ucuz düyünü alıb gətirib, Hindistanın və ya İranın düyü firmalarının qablarına doldurub satsınlar. Ən yaxşısı yerli düyülərdir. Bizim çox gözəl Lənkəran-Astara düyümüz var, Şəki düyüsü var, çox ləzzətli və həlimlidir. Yerli məhsullara üstünlük vermək həmişə yaxşıdır. Məhsul sizin yaşadığınız yerə nə qədər yaxın olsa, təxminən 500 kilometr radiusunda yetişirsə, o sizə xeyirlidir. Ən yaxşı məhsul belə çox uzaqdan gəlirsə, bədənə düzgün məlumat vermir və xeyirli olmur. Mən məsləhətçi olduğum yerlərdə yerli düyüdən istifadə edilməsini məsləhət görürəm. Əgər biz yerli məhsula üstünlük versək, kəndli də daha çox onu əkər. O düyü də yerli əhaliyə bəs edər. İran düyüsü də bizə çox uyğundur. Hindistan və Pakistan düyülərinin də keyfiyyəti çox yaxşıdır".

❑ **Nərgiz LİFTİYEVA**

**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

## "Nar" intellektual bilik yarışlarını dəstəkləməyə davam edir

"Brain Ring" izlə, "Nar"dan hədiyyə qazan!




**Təhsil və elmə, mədəniyyət və maarifləmənin təbliğinə xüsusi önəm verən "Nar" intellektual bilik yarışlarını dəstəkləməyə davam edir. Artıq bir neçə ildir ki, "Brain Ring" yarışının sponsorluğunu öz üzərinə götürən mobil operator bu il də məşhur bilik yarışının baş sponsoru oldu.**

**Mart ayının 27-də "Brain Ring" intellektual bilik yarışlarının növbəti - yeddinci mövsümü start götürdü. "Nar" operatorunun ənənəvi olaraq dəstək verdiyi bu ilki yarışların birinci mərhələsi 16 hissədən ibarət olacaq. "Brain Ring 2016" bilik yarışlarında respublikanın 17 bölgəsi və 10 ali məktəbini təmsil edən 34 komanda iştirak edir. İyul ayının 10-dək davam edəcək yarışların birinci mərhələsi hər həftənin bazar günü saat 19:00-da AzTV vasitəsilə yayımlanır.**

**Qeyd edək ki, televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə "Brain Ring" və "Nar" onlayn müsabiqə keçirmək qərarına gəliblər. Belə ki, verilişin yayımı zamanı aparıcı tərəfindən tamaşaçılar üçün səsləndirilən suala "Twitter" hesabında @salam_nar təqi vasitəsilə ən tez cavab verənlər xüsusi hədiyyələr qazanacaqlar. Suallara tez və dolğun cavab vermiş tamaşaçıya "Nar" tərəfindən 4G-modem və 1 aylıq yüksəksürətli internet hədiyyə ediləcək. Beləliklə, "Brain Ring" həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də "Nar" operatorundan hədiyyələr qazanmaq şansı əldə edəcəklər.**

YENİ MÜSAVAT
N 65 (6386) 29 mart 2016

# “Sadəcə, sevdim...”

## “Ebru ilə Rza Zərrab dastanı”nın bilinməyən detalları, pərdəarxası...

**Hazırda Türkiyə mediasında ən çox müzakirə olunan mövzulardan biri heç şübhəsiz ki, iş adamı, eyni zamanda müğənni Ebrü Gündeşin həyat yoldaşı Rza Zərrabın həbsidir. Həbsin detalları və pərdə, arxası barədə “Yeni Müsavat”ın ötən sayında geniş məqalə dərc edilib. Amma mövzunun şou-biznes dünyası üçün maraq kəsb edən tərəfi bu cütlüyün sevgi hekayəsidir.**



Müğənni qadın özündən yaşca kiçik, varlı biznesmenlə bir araya necə gəlib? Fırtınalı eşq hekayəsi, ayrılıqlar, qısqanclıq krizləri, bahalı hədiyyələr, lüks həyat... Bütün bunlar Zərrabla Gündəşin münasibətlərində bir növ “naxış” idi. Barəsində 75 illik həbs cəzası tələb olunan iş adamını türk insanı həm də bu şou biznes olayları ilə xatırlayır.

“Yeni Müsavat” da mövzunun aktuallığını nəzərə alıb, onların hekayəsini təqdim edir. R.Zərrab Ebru Gündeşin həyatına 2008-ci ildə girib. Həmin vaxt xanım müğənni o zamankı sevgilisi Osmantan Erkırdan yenicə ayrılmışdı və ayrılığın səbəbi olaraq göstərilən ad isə Rza Zərrab idi. Təbii ki, klassik mənzərə yaşanırdı - hər iki tərəf bunu inkar edirdi. Amma həmin vaxt xəbərlərdə Zərrabın adı milyoner iş adamı kimi yox, söz yazarı-iş adamı olaraq hallandırılırdı.

İlk vaxtlar Türkiyə mediası onun barəsində çox kasad məlumata malik idi. Məlumatlarda onun azərbaycanlı olması, Bakıda dünyaya göz açması, tərkibində 6 fərqli şirkəti birləşdirən Royal Dənizçilik şirkətinin sahibi olması da yer alırdı. Rzanın ailəsi varlı idi. Qızıl və neft ticarəti ilə məşğul olurdu. Amma media onun barəsində hər zaman istehza ilə “istedadlı iş adamı” sözləri yazırdı. O, E.Gündeşin “Evet” adlı albomuna söz və musiqisini yazdığı “Sadəcə, sevdim” adlı mahnısını vermişdi.

Bununla yanaşı, Rza bəyin İbrahim Tatlısəs və Sibel Cana da mahnı verdiyi deyilirdi. Milyoner iş adamı bu barədə belə deyirdi: **“Mən heç bir mənfəət gözləmədən bəzi əsərlərimi sənətçi dostlarımla paylaşıram. Ebru xanıma da yenə maddi qarşılıq gözləmədən bir əsər verdim”.**

Həmin illərdə bir başqa maqazin bombardmanını isə azəri qızı Günel partlatmışdı. Günel telekanallara çıxıb, 8 illik sevgilisini əlindən Ebru Gündeşin aldığı, Zərrabın isə hələ də ona aşiq olduğunu deyirdi. Tam bir il sonra isə E.Gündeşin hamilə olduğu xəbəri sürətlə yayıldı. Elə həmin günlərdə cütlük Zərrabın İstanbulun Şişli bölgəsində yerləşən Elit Rezidansdakı evində imam nikahına girdilər. Amma bu iddialar cütük tərəfindən heç bir zaman təsdiqlənmədi. Bir müddət sonra isə Gündeşin hamilə olmadığı da üzə çıxdı.



Keçmiş sevgilisi Günelin iddiaları bitmədiyini görüb, Zərrab 2010-cu ilin yanvarında ilk müsahibəsini verdi. “Ebru xanıma heyranam” deyən iş adamı daha sonra şou biznes dünyasına damğa vuran sözlərini də dedi: **“Bir kişi olaraq nə yaşadığım münasibətlə, nə o münasibətdə xərclənən pulla, nə də özəl həyatımla bağlı heç bir açıqlama verəcəm. Bu, mənim aldığım tərbiyəyə yaraşmır. Amma gəldiyimiz nöqtə məni buna məcbur etdi. Güneldən ayrılmağımın Ebru Gündeşlə heç bir əlaqəsi yoxdur. Hər şey Günelin xəyanəti ucbatından bitdi”.**

Gündeş Zərrab ailəsinin də razılığını almışdı. Zərrabın anası bu münasibət barədə belə danışırdı: **“Günellə sevgili olduğu üçün oğlumuzla düz üç il boyunca danışmadıq. Ebru Gündeş mənim xanım qızımdır, onu çox sevirəm. Biz Ebru xanımdan çox razıyıq. Allah da ondan razı olsun”.**

Amma Türkiyə uzun müddət Zərrabla keçmiş sevgilisi Günelin dava, iftira və təhdid şousuna dözmək məcburiyyətində qaldı. Təbii ki, Ebru Gündeş də. Hətta Günelin iddiasına görə, ayrıldığı sevgilisinin evindən əşyalarını almaq üçün gedəndə evin divarlarında “Səni sevirəm, mənimlə evlənərsənmi” sözləri yazılmışdı. Bütün bunlar da mediada öz yerini aldı.

Ebru Gündeş ilə Rza Zərrab 11 fevral 2010-cu ildə evləndi. Nikah mərasimi cütlüyün Kəmərdəki evlərində, ailə arasında baş tutdu.

R.Zərrabın adı ilk dəfə 2011-ci ilin aprelində kriminal xronikada hallandı. Qaçaqçılıq suçu ilə göz altına alınan Turqut Happani adlı şəxsin sürücüsü olduğu deyilirdi. Happani 150 milyon dollarlıq qara pulun “təmizlənməsi” əməliyyatında həbs olunmuşdu. Türkiyədən Rusiyaya çamadanlarla 150 milyon dollar daşıyarkən həbs olunan 14 nəfər arasında yer alan Happaninin facebookdakı səhifəsində də dollarlarla çəkdirdiyi fotolar yer alırdı. Zərrab Happanini tanıdığını, amma heç bir zaman onun sürücülüyünü etmədiyini söyləmişdi. Hətta bundan xəbər hazırlayan media qurumlarını məhkəməyə də vermişdi. Maddi və mənəvi təzminat istəmişdi.

Türkiyə mediası E.Gündeşin hamiləliyini də həmin vaxt öyrəndi. Çünki cütlük yay aylarını Bodrumdakı sahillərdən birində, öz gəmilərində keçirirdi. Media isə hamilə Ebrunu uzaqdan da olsa görüntüləməyi bacarmışdı. Cütüyün qızı Alara 16 dekabr 2011-ci ildə dünyaya gəldi. Doğumdan qısa müddət sonra cütlük Kanlıca bölgəsində yerləşən yeni villalarında yaşamağa başladı.

Medianın cütlük barədə ən çox yazdığı isə “Rza Zərrabdan həyat yoldaşına möhtəşəm hədiyyə” xarakterli xəbərlər olurdu. Ad günündə ultra lüks gəmi, bir cut villa, 250 min dollarlıq maşın, yollara tökülən yük maşını dolusu güllər, göydələndə 2 milyon dollarlıq ev... Hətta sənətçinin bir auksiona qatılması, orda Nazmi Ziyanın “Sənətçinin evi” adlı tablosuna 750 min dollara yaxın pul ödəməsi də yayılan xəbərlər sırasında idi. Amma E.Gündeş bu xəbərlərdən olduqca narazı idi. Günlərin bir günü partladı: **“Həyat yoldaşım iş adamıdır, mən də illərdir çalışan bir qadınam. Ailəmiz, uşağımız üçün investisiya qoya bilmərik? Bir-birimizə hədiyyələr ala bilmərik? Biz bunlardan xəbər hazırlanmasından bezdik. Həyat yoldaşımın növbəti hədiyyəsinin nə olacağı ilə maraqlananlara deyim: plan qurmuşuq, ərim mənə Marsı satın alacaq!”**

R.Zərrabın adı daha sonra E.Gündeşdən daha çox maliyyə maxinasiyalarında hallandı. Amma ən şok xəbər onun gizli yazışmalarının üzə çıxması oldu. Həmin yazışmalarda R.Zərrab İstanbula gələn iş ortağına jest üçün kef məclisi təşkil etmiş, fahişə kirayələməmişdi. Amma yazışmalarda iş adamı “onlardan ən gözəlini özünə ayıracağını” da yazmışdı. Ondan bir müddət sonra R.Zərrabın ilk həbsi baş tutmuşdu. Türkiyə mediası E.Gündeşin ən azından bu xəbərə görə ərindən boşanacağını yazsa da, bu, baş tutmadı. Əri ilk dəfə həbs olunan zaman jürisi olduğu verilişdə çıxış edən E.Gündeş həyat yoldaşını çox sevdiyini, ona dəstək olduğunu və pis günlərin tezliklə arxada qalacağına inandığını demişdi.

Bilməyənlər üçünsə R.Zərrabın E.Gündeş üçün yazdığı o mahnını yada salaq:

*Sadece Sevdim*
*Olmaz sana*
*kalpten sitemim*
*Her ne dersem dilimden*
*Eğer seni incitirse bu kalp*
*İnan sökerim yerinden.*
*Anlamıyorsun*
*gönül derdinden*
*Neler çektim elinden*
*Kaç kere kırdın*
*kaç kere üzdün*
*Beni perişan ettin sen*
*Yine de ah etmedim,*
*yine de ah etmedim.*
*Sadece sevdim,*
*sadece sevdim ben.*

İndi isə Türkiyə mediası səbirsizliklə cütlüyün boşanacağı günü gözləyir. Bu gözləntinin özünü doğruldub-doğrultmayacağını isə zaman göstərəcək.

**Sevinc TELMANQIZI**

## Tanınmış reperin narkotiklə tutulması xəbəri yayıldı

**Tanınmış reper Miri Yusif (Mirbabayev Mir Yusif Mir Heydər oğlu) bugünlərdə DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Bu barədə məlumat musavat.com-a hüquq-mühafizə orqanlarından daxil olub.**



Miri Yusif

Mənbəmiz bildirib ki, Miri Yusif və onunla birlikdə olan Etibar adlı şəxs (“Pulya Etibar” kimi tanınır) əməliyyatçılar tərəfindən saxlanılıb. Onların üzərindən narkotik maddə kokain aşkarlanıb. Miri Yusif və dostu Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparılıblar. Bir neçə saatlıq araşdırmalardan sonra Miri Yusif azad edilsə də, Etibar adlı şəxs barəsində həbs-qətimkan tədbiri seçilib, faktla bağlı araşdırmalara başlanılıb.

Musavat.com məsələyə aydınlıq gətirmək üçün müğənninin prodüseri Emin Əfəndi ilə əlaqə saxlayıb. O bildirib ki, müğənninin saxlanılması xəbəri həqiqəti əks etdirmir: “Bu yanlış məlumatdır, cəfəngiyyatdır. Miri Yusif saxlanılmayıb”.

DİN-in mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə isə “Yeni Müsavat”a açıqlamasında deyib ki, hadisədən xəbərsizdir: “Bu haqda məlumatım yoxdur. Araşdırıb ətraflı məlumat verərəm”.

**Könül İBRAHİM**

YENİ MÜSAVAT

Son səhifə

N 65 (6385) 29 mart 2016

# Dünyada yeni dəb - "Gender Party"lər keçirilir

**Son illərdə Amerikada yeni dəb yaranıb. Uşağının cinsiyyətini öyrənən cütlüklər "Gender Party" və ya "Gender Reveal" adlı məclislər keçirir. Bu tədbirlər adətən hamiləliyin üçüncü ayından sonra baş tutur. Ana olmağa namizədləri ultrasəsdə uşağın cinsiyyətini öyrənən kimi bunu bayram kimi qutlayır.**

Maraqlıdır ki, bundan öncə də dünyada "Baby Shover" partiləri çox populyar idi. Bu da uşağın dünyaya gəlişinə bir neçə gün qalmış gerçəkləşir, qarnı burnunda olan ana qonaqları da dəvət edərək, baş tutacaq gözəl günü öncədən dostları ilə qutlayırdı. Amma dünyada bu cür tədbirlərə qarşı çıxanlar çoxdur. Xüsusən də Amerikada uşaqların hüquqlarının müdafiəsi ilə bağlı təşkilatlar bu cür tədbirləri tənqid edirlər. Onların fikrincə, bu, uşaqlar arasında ayrı-seçkilik yaradır.



## Günəş vannası qəbul edən qadınlar daha çox yaşayır



**İsveçdəki Karolinska Universiteti Xəstəxanası və Lund Universiteti tərəfindən həyata keçirilən bir araşdırma nəticəsində məlum olub ki, tez-tez Günəş vannası qəbul edən qadınlar bundan imtina edən həmcinslərindən 2.1 il daha çox yaşayırlar. 20 il boyunca 29 min 518 nəfər qadın üzərində aparılan araşdırma nəticəsində məlum olub ki, Günəş vannası ürək və xərçəng xəstəliklərini çıxmaq şərtilə, digər xəstəliklərə tutulma riskini azaldır.**

Araşdırmaya rəhbərlik edən doktor Pelle Lindqvist bildirib ki, Günəşdən qaçmaq insanın həyatına siqaret qədər böyük və mənfi təsir göstərir. Günəş altında uzanmaq dəri xəstəlikləri riskini azaltsa da, ultrabənövşəyi şüalara məruz qalmaq dəri xərçənginə səbəb olur. İngiltərənin "Independent" qəzetinin xəbərinə görə, mütəxəssislər Günəşə çıxmazdan 30 dəqiqə öncə Günəş kremi sürtülməsini məsləhət görürlər. Bundan başqa, günorta saat 11:00 ilə 03:00 arasında güclü Günəş şüalarına çıxmamağı məsləhət görürlər.



## Qorxu ilə arıqlamaq mümkündür

**Alimlər 2 ilə 130 kiloqram arıqlamağın mümkün olduğunu müəyyənləşdiriblər. Özü də qorxu nəticəsində. Həkimlər boyu 162, çəkisi təxminən 200 kiloqram olan qadını müayinə edərək onun ömrünün sonuna maksimum 2 il qaldığını bəyan edib, yaşamaq üçün onun təcili arıqlamalı olduğunu bildirib. Bundan qorxuya düşən qadın sağlam qidalanmaya keçib, eyni zamanda hər gün hovuzda üzüb. Nəticədə 2 ildə 130 kiloqram arıqlayan amerikalı "2011-ci ilin arıqlaması" tituluna sahib çıxıb. Bir qorxunu bir dəfə yaşamaq olar.**

# Pişik bağlamada 420 kilometr yol getdi

**Britaniyada Kapkeyk ləqəbli siam pişiyinin başına qəribə hadisə gəlib. Belə ki, heyvanı səhvən poçt bağlaması ilə göndəriblər. Bu barədə lenta.ru saytı "Buzz Feed Nevs"a istinadən xəbər verib. Xəbərə görə, pişik bağlamada 420 kilometrlik məsafəni "qət edib".**

Bağlama özünə disk sifariş verən gəncə gəlib. Bağlamanı açan gənc onun içindəki DVD-lərlə yanaşı, pişik də görərək şoka girib. Gənc pişiyi heyvanların müdafiəsi ilə məşğul olan quruma təhvil verib. Tibbi müayinədən sonra məlum olub ki, bağlamanın içində 420 kilometrlik yolu gedən pişiyin səhhətində hər şey qaydasındadır. Amma havasızlıqda qaldığı üçün halsızlaşıb. Pişiyin üzərindəki mikroçip sayəsində isə onun sahibinin kimliyi müəyyənləşib. Pişiyin sahibəsi Ciloa Beqqot deyib ki, o, diskləri bağlamanın içinə qoyanda pişiyin onun içinə girdiyini görməyib. Nəticədə isə günlərlə öz pişiyini axtarıb və onun oğurlanmasından şübhələnib. Britaniyalı qadın eyni zamanda bildirib ki, pişiyi Kapkeykin geri dönüşünü möcüzə sayır.





## Tülkünü toyuq hinindən qovmaq istədi... həyatını itirdi

**Türkiyənin Denizli şəhərində dəhşətli hadisə baş verib. 42 yaşlı Hüseyn Eşkol adlı kişi toyuq hininə dadanan tülküdən qurtulmaq istəyərkən həyatını itirib. Belə ki, toyuq hininə girən tülkünü öncə ağacla, sonra daşla vuraraq oradan çıxarmaq istəyən kişi buna nail ola bilməyib. Əvəzində tülkü hirslənərək, ona hücum edib və kişini ölümcül şəkildə yaralayıb. Eşkol dərhal xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Tülkünün vurduğu yara izləri olduqca dərin olub.**

Alimlər bildirir ki, şikar üstündə olan yırtıcı heyvanlara hücum etmək əksər hallarda ölümlə nəticələnir. Çünki həmin vaxt onlar hər zamankından daha qəddar və aqressiv olurlar.

## Qoroskop




**QOÇ** - Kollektiv müəssisədə fəaliyyət göstərdiyiniz təqdirdə müvəffəqiyyət qazanmağı bacaracaqsınız. Hətta namizədsinizsə, vəzifə irəliləyişləri də mümkündür. Axşama doğru çoxdan əlaqə saxlamadığınız doğmalarınızdan xəbər tutun.

**BUĞA** - Gərgin iş qrafikinə dözümsüzlüyünüz bir az problem yarada bilər. Yalnız böyük ideyalarınız barədə düşünün. Ətrafınızdakılar tərəfindən sevilməyə çalışın. Aldığınız təkliflərə isə razılıq verməyə tələsməyin.

**ƏKİZLƏR** - Ev-mənzil təmirinə başlamaq üçün yaxşı vaxtdır. Yalnız saat 11-13 arası xırda mübahisələriniz mümkündür ki, bunu da özünüz yaratmamalısınız. Astroloji göstəricilər səhhətinizə fikir verməyi məsləhət görür.

**XƏRÇƏNG** - Qısqanclıq, dedi-qodu, iki münaqişəli adamı barışdırmaq cəhdi sizi gözdən sala bilər. Odur ki, istənilən prosesdə loyallığınızı qorumağı bacarmalısınız. Kreditlə bağlı bütün işləri təxirə salın.

**ŞİR** - Göy qübbəsi düşünülməmiş addım atmağınızın əleyhinədir. Çətinliyiniz olduğu təqdirdə mütləq inandığınız adamlardan məsləhət alın. Bu gün saat 16-dan sonra çox əziyyətlərinizin bəhrəsini görəcəksiniz.

**QIZ** - Qəlbinizin sevgi guşəsini boş saxlamayın. Çünki bu ərəfədə enerjinizi məhz məhəbbətdən almalısınız. Könül rahatlığınız təmin olunduğu halda, qalan məsələlərdə hər şey qaydasında olacaq. Səfərə çıxmayın.

**TƏRƏZİ** - İqlimin mülayimliyi ümumi ovqatınıza müsbət təsir edəcək ki, bu da əlinizdə olan işlərin daha sürətli həllinə xidmət edəcək. Bu gün kənar təsirlərə, dedi-qoduya əhəmiyyət verməməli, səfərə çıxmamalısınız.

**ƏQRƏB** - Təcrübəli adamlarla məsləhətləşin, müqəddəs ziyarətgahlarımıza baş çəkin. Probleminizin həllini məmurlardan deyil, Tanrıdan istəyin. Axşam saatlarını daha çox evdə keçirməyə çalışın - oturaq işlər məsləhətdir.

**OXATAN** - Günün ümumi mistik gərginliyinə baxmayaraq, nahardan etibarən uğurlar sizi qoynuna alacaq. Rastlaşdığınız hadisə və insanlar ümumi əhvalınıza yüksək təsir edəcək. Pulsuzluqdansa məyus olmayın.

**OĞLAQ** - Uzaq səfərləri və spirtli içki qəbul etməyi təxirə salsanız, gün ərzində hər hansı xoşagəlməzliyin şahidi olmayacaqsınız. Sənədlərlə bağlı bütün işlərinizi sürətləndirin. Astroloji göstəricilər gecəni evdə keçirməyi tövsiyə edir.

**SUTÖKƏN** - Daxili sabitliyinizi qorumaqla situasiyalarda fəallaşmağı bacaracaqsınız. Bu gün həm də bir neçə sınaqdan keçəcəyiniz gözlənilir. Günün ikinci yarısı büdcənizi artırmaq imkanınız olacaq.

**BALIQLAR** - Bütün gücünüzü fəaliyyət istiqamətinə yönəldin. Gün ərzində başladığınız heç bir işi yarımçıq buraxmayın. Pulla bağlı layihələrdə təkbaşına qərar verməyin, mütləq təcrübəli insanların köməyindən yararlanın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Marixuana çəkmək xərçəngə səbəb olur



**Alimlər marixuana çəkməklə müalicəyə tabe olmayan yumurtalıq xərçəngi arasında sıx əlaqənin olduğunu müşahidə ediblər. ABŞ-ın Kaliforiya Universitetindən olan mütəxəssislər bu haqda "Cancer" jurnalında məlumat veriblər. Kanserogen effekt nəinki davamlı istifadə zamanı, həmçinin maraq naminə bir və ya bir neçə dəfə dadına baxarkən də formalaşır.**

15-45 yaş arası əhali arasında daha intensiv şəkildə yayılan xəstəlik nəticə etibarilə müalicəyə çətin tabe olan və ümumiyyətlə, olmayan şəkildə keçirilir və pis mühitin nəticəsidir.192 xəstə və 292 sağlam xəstəni sorğudan keçirən mütəxəssislər belə nəticəyə gəliblər ki, marixuanadan istifadə bəd prosesi iki dəfəyə qədər sürətləndirir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750